RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 238 (8261) ŞƏNBƏ, 26 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycanın beynəlxalq nüfuzunun növbəti təntənəsi



## İLHAM ƏLİYEVDƏN dünyaya çağırış:
## "İkili standartlar siyasətinə son qoyulmalıdır"



**Oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü işə başlayıb. AZƏRTAC xəbər verir ki, "Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak edirlər. Ümumilikdə Zirvə görüşünə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələri qatılıblar.**

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edən Belarus parlamenti Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenkonu, Oman Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirini, Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin Sədri Çoe Ryonq Haeni, Liviyanın Baş Naziri Faiz Saracı, Nepalın Baş Naziri Khadqa Prasad Şarma Olini, Banqladeşin Baş Naziri xanım Şeyx Hasinanı, Malayziyanın Baş Naziri Mahathir Bin Mohamadı, Hindistanın vitse-prezidenti Muppavarapu Venkaiah Naidunu, Vyetnamın vitse-prezidenti xanım Danq Thi Nqok Thinhi, Ekvatorial Qvineyanın Prezidenti Obiang Nguema Mbasogonu, Sudanın Prezidenti Abdul-Fattah Al-Burhanı, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb əsilli Sədri Milorad Dodiki, Cibutinin Prezidenti İsmail Ömər Qellehi, Qananın Prezidenti Nana Akufo-Addonu, Əlcəzairin Prezidenti Abdelkader Bensalahı, Namibiyanın Prezidenti Haqe Qotfrid Qeynqobu, Venesuelanın Prezidenti Nikolas Maduronu, Esvatininin Kralı III Msvatini, Əfqanıstanın Prezidenti Məhəmməd Əşrəf Qanini, Kubanın Prezidenti Migel Diaz-Kaneli, Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovu, İranın Prezidenti Həsən Ruhanini, Pakistanın Prezidenti Arif Alvini qarşıladı.

Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Qoşulmama Hərəkatına sədrlik edən Venesuela Bolivar Respublikasının Prezidenti **Nikolas Maduro** Zirvə görüşünü açaraq təşkilata üzv bəzi ölkələrin dünyasını dəyişən keçmiş dövlət və hökumət başçılarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsini təklif etdi.

Nikolas Maduro çıxışında Azərbaycan hökumətinə qonaqpərvərliyə görə təşəkkür etdi. Maduro Venesuelanın sədrliyi dövründə Qoşulmama Hərəkatının böyük inkişaf yolu keçdiyini, dünyada sülhün və təhlükəsizliyin güclənməsinə xidmət göstərdiyini dedi və növbəti üç il üçün sədrliyin Azərbaycana keçdiyini bəyan etdi.

Qoşulmama Hərəkatına sədrlik Azərbaycana təhvil verildi.

Qoşulmama Hərəkatının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə nitq söylədi.

## Avstriya Respublikasının Federal Prezidenti zati-aliləri cənab Aleksander Van der Bellenə

Hörmətli cənab Federal Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Avstriya əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Avstriya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2019-cu il*

# Prezident İlham Əliyevin nitqi




- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün bütün iştirakçılarını səmimiyyətlə salamlayır və hər birinizə xoş gəlmisiniz deyirəm.

2016-2019-cu illərdə Qoşulmama Hərəkatına sədrlik etdiyinə görə Venesuela Bolivar Respublikasına təşəkkürümü bildirirəm.

Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliğinə xidmət edir və bütün ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə sadiqliyini nümayiş etdirir. Qoşulmama Hərəkatı özündə 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır.

Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına üzv qəbul olunmuşdur. Qoşulmama Hərəkatında olduğu qısa müddət ərzində ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazanmışdır.

Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının 2016-cı ildə keçirilmiş XVII Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur. Bu, ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür. Bunu dünya ölkələrinin əksəriyyətini öz sıralarında birləşdirən Qoşulmama Hərəkatının bizim siyasətimizə verdiyi dəstək kimi qiymətləndirir və bu qərara görə bir daha sizlərə təşəkkürümü bildirirəm.

Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq. Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür.

Biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir.

Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı digər təsisatlarla dialoqun qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın coğrafiyasının genişləndirilməsi üçün səylər göstərəcəkdir. Qoşulmama Hərəkatına üzv ölkələrin əksəriyyəti inkişaf etməkdə olan ölkələr olduğundan Hərəkat çərçivəsində iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi çox mühümdür. Bu mənada keçən ay Azərbaycanın "77-lər qrupu"na qoşulması sosial-iqtisadi sahədə beynəlxalq miqyasda səylərimizi daha da artırmağa imkan verir. Üzv dövlətlərin maraqlarının BMT çərçivəsində birgə səylərlə müdafiə olunması xüsusi əhəmiyyət kəsb edir.

Ən az inkişaf etmiş, dənizə çıxışı olmayan kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərə xüsusən diqqət yetirilməlidir. 2005-ci ildən etibarən Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərmişdir. Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proqramları və digər sahələrdə layihələr həyata keçirir.

Azərbaycan 2018-ci ildən etibarən Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ölkəmizin ali məktəblərində təhsil almaq məqsədilə tam ödənişli təqaüdlər verir. Bu gün 31 üzv dövlətdən 37 gənc bu proqramdan faydalanır.

Azərbaycanda gənclər siyasəti prioritet sahə kimi müəyyən edilmişdir. Azərbaycan gəncləri milli ruhda, ənənəvi dəyərlərlə, vətənə bağlı və vətənpərvər ruhda tərbiyə alırlar. Buna görədir ki, Qoşulmama Hərəkatı tarixində ilk dəfə olaraq Gənclər Sammitinin keçirilməsi təşəbbüsü ilə çıxış etmişik. Hazırkı Zirvə görüşü ərəfəsində keçirilmiş Gənclər Sammitində 40 dövlətdən ölkəmizə gəlmiş gənclər iştirak etmişlər.

Xanımlar və cənablar, hörmətli qonaqlar.

Azərbaycanın dövlət müstəqilliyinin cəmi 28 yaşı var. Bir həftə öncə - oktyabrın 18-də müstəqilliyimizin bərpa olunması gününü qeyd etdik. Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon - ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizi iyirmi beş ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmış və nəticədə bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi və qaçqınların, məcburi köçkünlərin əhalinin adambaşına düşən sayına görə ölkəmiz dünyada ilk yerləri tuturdu. Ermənistan azərbaycanlılara qarşı Xocalı soyqırımını törətmişdir. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq yalnız azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirilmişdir. Mindən çox insan itkin düşmüşdür.

Xocalı soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınmışdır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur. Təəssüf ki, həmin qətnamələr həyata keçirilməmişdir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günün içində icra edilir. Bəzən isə Azərbaycanın üzləşdiyi münaqişəyə münasibətdə olduğu kimi, 26 ildir ki, kağız üzərində qalır.

Bu ikili standartlar siyasətinə son qoyulmalıdır. İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul etmişlər. Fürsətdən istifadə edərək Qoşulmama Hərəkatının indiyə qədər qəbul olunmuş sənədlərində münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə etdiklərinə görə üzv dövlətlərə təşəkkürümü bildirirəm.

Azərbaycanın işğal olunmuş ərazilərində bütün tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilmişdir. Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərdə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimləri erməniləşdirir. Ermənistan həmçinin işğal olunmuş ərazilərdə beynəlxalq humanitar hüquqa zidd olaraq qeyri-qanuni məskunlaşdırma siyasəti aparır və qanunsuz iqtisadi fəaliyyətlə məşğul olur.

*Ardı 2-ci səh.*

# Azərbaycanın beynəlxalq nüfuzunun növbəti təntənəsi

Əvvəli 1-ci səh.

2016-cı ilin aprel ayında Ermənistanın törətdiyi hərbi təxribat nəticəsində aralarında bir uşaq olmaqla altı azərbaycanlı mülki şəxs həlak olmuş, 26-sı yaralanmışdır, yüzlərlə ev dağıdılmışdır. Qarabağ əzəli Azərbaycan torpağıdır və münaqişə yalnız Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Azərbaycan müstəqil xarici siyasət yeridir. Bu siyasət milli maraqlara, ədalətə əsaslanır və bizə çoxlu dostlar qazandırmışdır. 2011-ci ildə Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi buna bariz nümunədir. Təhlükəsizlik Şurasına üzvlük müddətində Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə mühüm töhfələr vermiş və beynəlxalq siyasi proseslərin fəal iştirakçısına çevrilmişdir.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının mandatı əsasında təsis edilmiş beynəlxalq sülhməramlı əməliyyatlara da öz töhfəsini verir. Ölkəmiz Rusiya-NATO, Rusiya-ABŞ yüksək hərbi rəhbərliyinin mütəmadi olaraq keçirilən görüşlərinə evsahibliyi edir. Dünyada 200-ə qədər ölkə vardır. Bu ölkələr arasında qeyd etdiyim görüşlər üçün Azərbaycanın seçilməsi bizim yürütdüyümüz müstəqil xarici siyasətə olan hörmətin göstəricisidir.

Hörmətli qonaqlar, müstəqilliyimizin ilk illəri Azərbaycan üçün çox keşməkeşli olmuşdur. Xəyanətkar, satqın, qorxaq, səriştəsiz Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti illərində ölkəmiz böyük bəlalara düçar olmuşdur. Azərbaycanda vətəndaş müharibəsi başlamışdır. Yalnız 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə Prezident Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkəmizi daha böyük faciələrdən xilas etdi. Azərbaycan demokratik, dayanıqlı inkişaf yoluna qədəm qoydu, ölkədə sabitlik və əmin-amanlıq bərqərar oldu.






Azərbaycan demokratiya, insan hüquqları və azadlıqları kimi dəyərlərə sadiqdir. Bunun dərin tarixi kökləri vardır. Biz fəxr edirik ki, bir əsr bundan əvvəl Şərqdə müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuş, qadınlara səsvermə hüququ verilmişdir. Bu sahədə biz hətta əksər Qərb ölkələrini də qabaqlamışıq. Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir. Azərbaycanda bütün fundamental insan hüquq və azadlıqları, qanunun aliliyi, mətbuat azadlığı təmin olunur.

Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Azərbaycana 270 milyard dollardan artıq sərmayə qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada 9-cu yerdəyik. Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir. Təkcə bu il minimum əməkhaqqı və sosial müavinətlər iki dəfə, minimum pensiya 70 faiz artmışdır. 280 mindən çox insanı əhatə edən 68 min ailə ünvanlı sosial yardımdan faydalanır və hər bir ailə təxminən 140 ABŞ dolları ekvivalentində aylıq sosial yardım alır. Son 15 il ərzində Azərbaycanda 3200-dən çox məktəb və 640-dan çox xəstəxana və tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Üç yüz mindən çox məcburi köçkün pulsuz evlər və mənzillərlə təmin edilmişdir. Məcburi köçkün ailələrinə orta hesabla 180 ABŞ dolları ekvivalentində aylıq müavinət verilir.

Azərbaycanın əldə etdiyi nailiyyətlər beynəlxalq aləmdə təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə "Doing Business" hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsində isə 5-ci yerdədir.

Azərbaycan kosmik ölkədir. Hazırda ikisi telekommunikasiya, biri isə Yer səthini müşahidə edən üç peykimiz var. Əhalimizin 80 faizi internet istifadəçisidir.

Azərbaycanda enerji təhlükəsizliyi təmin edilmişdir. Yenə də Davos Ümumdünya İqtisadi Forumunun hesabatına istinad edərək deməliyəm ki, elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Azərbaycan, eyni zamanda, bir sıra ölkələrin enerji təchizatçısıdır. Asiya və Avropa qitələri arasında körpü rolu oynayan Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə kimi bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr - Cənub-Qərb və Şimal-Qərb layihələri üzərində çalışırıq. Beləliklə, Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa öz dəyərli töhfəsini verir.

İqlim dəyişikliyi qlobal təhlükədir. Azərbaycan onun fəsadlarına qarşı mübarizə üzrə beynəlxalq səyləri dəstəkləyir. Azərbaycan Paris Sazişini ratifikasiya etmiş, baza ili - 1990-cı illə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürmüşdür. Elektrik enerjisinin istehsalı üçün Azərbaycanda ancaq ekoloji təmiz qaz və su elektrik stansiyalarından istifadə olunur.

Azərbaycan zəngin tolerantlıq, multikulturalizm ənənələrinə malikdir. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. On bir il əvvəl İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin iştirakı ilə başladığımız "Bakı Prosesi" təşəbbüsü BMT tərəfindən də dəstəklənir. BMT-nin Baş katibi Antonio Quterreş "Bakı Prosesi"ni 2008-ci ildən bəri mədəniyyətlər arasında dialoqun təbliğinin ön cəbhəsi kimi dəyərləndirmişdir. "Bakı Prosesi"nin məntiqi davamı olaraq təsis edilmiş və iki ildən bir ölkəmizdə keçirilən mədəniyyətlərarası dialoq üzrə Ümumdünya Forumu artıq BMT Baş Assambleyasının qətnamələri ilə mədəniyyətlərarası dialoqun təşviq olunması üçün əsas qlobal platforma kimi tanınmışdır.

Hörmətli qonaqlar, əminəm ki, Zirvə görüşü çərçivəsində aparılacaq müzakirələr Qoşulmama Hərəkatının gündəliyində duran hədəflərin həyata keçirilməsinə xidmət göstərəcəkdir. Azərbaycan Hərəkata sədrlik edəcəyi müddətdə öz prioritetlərini üzv dövlətlərlə birgə həyata keçirmək üçün ardıcıl səylər göstərəcəkdir.

Mən Zirvə görüşünün işinə uğurlar arzulayır və bir daha hamınıza xoş gəlmisiniz deyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra Zirvə görüşü Prezident İlham Əliyevin sədrliyi ilə davam etdi.

Zirvə görüşünün gündəliyi qəbul edildi, büro üzvləri seçildi, xüsusi qonaq olan dövlətlərin və təşkilatların siyahısı təsdiqləndi.

Daha sonra BMT Baş Assambleyasının prezidenti **Ticani Məhəmməd-Bande** çıxış etdi.

BMT Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavini xanım **Rozmari DiKarlo** çıxış etdi və Baş katib Antonio Quterreşin müraciətini oxudu.

Zirvə görüşü "77-lər qrupu" təşkilatının sədri **Riyad Mənsurun** və Azərbaycanın Xarici İşlər naziri **Elmar Məmmədyarovun** çıxışları ilə davam etdi.

Çıxışlarda Qoşulmama Hərəkatının qarşısında mühüm vəzifələrin durduğu bildirildi, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının vacibliyi vurğulandı.

Çıxışlardan sonra Prezident İlham Əliyev Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının sessiyasını bağlı elan etdi.

Fasilədən sonra Prezident **İlham Əliyevin** sədrliyi ilə davam edən Zirvə görüşündə Pakistan Prezidenti **Arif Alvi,** İran Prezidenti **Həsən Ruhani,** Türkmənistan Prezidenti **Qurbanqulu Berdiməhəmmədov,** Malayziyanın Baş Naziri **Mahathir Bin Mohamad,** Əfqanıstan Prezidenti **Məhəmməd Əşrəf Qani,** Kuba Prezidenti **Migel Diaz-Kanel,** Cibuti Prezidenti **İsmail Ömər Qelleh,** Prezident Vladimir Putinin Zirvə görüşünə ünvanladığı müraciəti səsləndirən Rusiyanın Xarici İşlər nazirinin müavini **Sergey Verşinin,** Əlcəzair Prezidenti **Abdelkader Bensalah,** Esvatininin Kralı **III Msvati,** Qana Prezidenti **Nana Akufo-Addo,** Namibiya Prezidenti **Haqe Qotfrid Qeynqob,** Ekvatorial Qvineyanın Prezidenti **Obiang Nguema Mbasogo,** Sudan Prezidenti **Abdul-Fattah Al-Burhan,** Hindistanın vitse-prezidenti **Muppavarapu Venkaiah Naidu,** Vyetnamın vitse-prezidenti xanım **Danq Thi Nqok Thinh,** Banqladeşin Baş Naziri xanım **Şeyx Hasina,** Nepalın Baş Naziri **Khadqa Prasad Şarma Oli** və Liviyanın Baş Naziri **Faiz Sarac** çıxış etdilər.

Zirvə görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkür edən natiqlər Qoşulmama Hərəkatının qarşısında mühüm vəzifələrin durduğunu deyərək dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının vacibliyini vurğuladılar. Çıxışlarda terrorçuluqla mübarizə, münaqişələrin həlli ilə bağlı beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi, beynəlxalq hüquq və öhdəliklərin yerinə yetirilməsi, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, qaçqınlar problemi, yoxsulluğun azaldılması, ətraf mühitin qorunması, üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və digər məsələlərlə bağlı fikirlər diqqətə çatdırıldı. Çıxış edənlər mövcud problemlərin həllində Qoşulmama Hərəkatının kifayət qədər güclü mövqelərə malik olduğunu deyərək 60 il bundan qabaq qəbul olunan Bandunq prinsiplərinin bu gün də aktual olması fikrində həmrəylik nümayiş etdirdilər.

Qeyd edək ki, Qoşulmama Hərəkatının yaradılmasının və fəaliyyətinin əsas prinsiplərindən biri onun üzvləri arasında əməkdaşlıq üçün bir forum rolunu oynamasıdır. Tamhüquqlu 120 üzvü olan Qoşulmama Hərəkatı özündə 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirir. 1961-ci ildə yaradılmış təşkilata üzv olan hər bir dövlət onun prinsiplərinə bağlılığını bildirməlidir. Hərəkata üzvlük prinsipləri hələ təşkilatın təsis olunmasından əvvəl, 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən konfrans zamanı qəbul edilib.

Azərbaycan Respublikası 2011-ci il mayın 26-da Qoşulmama Hərəkatına üzv ölkələrin yekdil dəstəyini əldə edərək təşkilata tamhüquqlu üzv qəbul olunub. Azərbaycan Hərəkatın müxtəlif səviyyəli iclas və konfranslarında iştirak etmək və üzv ölkələrlə ikitərəfli münasibətlərini sıxlaşdırmaqla onun məqsəd və prinsiplərinə öz töhfəsini verir. Hərəkata üzv olduğumuz qısa müddət ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə beynəlxalq ictimaiyyətin geniş dairələrində məlumatlılıq daha da artıb, təşkilatın daxili prosedur və sənədlərində Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həllinə davamlı olaraq dəstək əks olunub. Hərəkata üzvlük həmçinin beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlığa dair proseslərə ölkəmizin daha yaxından cəlb olunması və çoxsaylı dövlətlərlə ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə münasib şərait yaradıb.

Oktyabrın 26-da başa çatacaq Bakı Zirvə Görüşündə 4 yekun sənədin qəbulu gözlənilir.

Beləliklə, Azərbaycan Respublikası 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək.

## *Türkmənistan Prezidenti Qurbanqulu BERDİMƏHƏMMƏDOV:*

# "Zirvə görüşü ən yüksək və mütəşəkkil səviyyədə keçir"



Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli Qurbanqulu Məlikquliyeviç, xoş gəlmisiniz.

Sizi Azərbaycan torpağında yenidən görməyimə şadam. Bu yaxınlarda Sizinlə Türkmənistanda MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində görüşmüşük. Fürsətdən istifadə edib Sizi həmin iclasın gözəl təşkili münasibətilə təbrik etmək və əlbəttə, Aşqabad haqqında təəssüratlarımı bir daha bölüşmək istərdim. Mən sizin ölkənizdə tez-tez oluram və orada böyük dəyişiklikləri görürəm. Bunu Sizə Aşqabadda da demişdim, indi də demək istəyirəm. Bu, şəhərsalma və şəhərin, onun infrastrukturunun müasir dinamik inkişafı, vətəndaşlar üçün, sakinlər üçün yaxşı şərait yaradılması nümunəsidir. Əlbəttə, biz gündəlikdəki ikitərəfli məsələlər barədə bir daha fikir mübadiləsi aparmaq imkanını əldən verə bilmərik. Biz müntəzəm olaraq görüşürük. Keçən il sizin ölkənizə rəsmi səfərimi, bundan əvvəlki görüşümüzü böyük məmnuniyyətlə xatırlayıram. Bu gün biz praktiki olaraq bütün sahələri əhatə edən ikitərəfli inkişafla bağlı mühüm məsələləri müzakirə edəcəyik.

Ölkələrimiz arasında qardaşlıq, dostluq münasibətlərinin böyük tarixi əsası var. Xalqlarımız çoxəsrlik tarix ərzində həmişə bir-birinə qardaşlıq münasibəti bəsləyib. Biz də bu ənənələri davam etdiririk. Buna görə Sizə bir daha səmimi-qəlbdən xoş gəlmisiniz deyirəm və təşəkkür edirəm ki, Türkmənistan Qoşulmama Hərəkatının Zirvə görüşündə ən yüksək səviyyədə iştirak edir.

❖ ❖ ❖

Prezident **Qurbanqulu BERDİMƏHƏMMƏDOV** dedi:

- Hörmətli İlham Heydər oğlu, Türkmənistanın ünvanına səmimi ürək sözlərinizə görə sağ olun. Mən də Sizə təşəkkür etmək istərdim ki, məni Qoşulmama Hərəkatının iştirakçısı olan ölkələrin XVIII Zirvə Görüşünə dəvət etmisiniz. Mən bəri başdan Sizi təbrik etmək istəyirəm. Zirvə görüşü ən yüksək və mütəşəkkil səviyyədə keçir. Bu münasibətlə Sizi təbrik edirəm. Əlbəttə, Zirvə görüşünün mahiyyəti bütün dünyada sabitliyin, təhlükəsizliyin və sülhün möhkəmləndirilməsidir. Burada bizim iqtisadi münasibətlərimiz və ən başlıcası, deyərdim ki, humanitar və beynəlxalq məsələlər mühüm rol oynayır. Yəqin ki, hər bir dövlətdə məhz onun öz maraqları mühüm rol oynayır. Bu, hərəkat üzvlərinin bugünkü çıxışlarından da aydın görünürdü. Hər bir dövlətin suverenliyi, ərazi bütövlüyü, yəqin ki, çox böyük əhəmiyyət kəsb edir. Buna görə, bildiyiniz kimi, biz də bitərəf ölkəyik, Türkmənistan neytraldır. Biz Sizin qonşularınız, qardaşlarınızıq. Əlbəttə, biz buna Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi mövqeyindən də baxırıq ki, heç vaxt qarşıdurma olmasın. Bütün bu məsələləri, əlbəttə, siyasi, diplomatik vasitələrlə həll etmək lazımdır. Buna görə bu gün bəlkə də bütün beynəlxalq arena üçün çox vacib Zirvə görüşünün uğurlu keçirilməsi münasibətilə Sizi bir daha təbrik etmək istəyirəm.

Bir söz də demək istərdim və bu, kompliment deyil. Qədim Xəzərin sahilindəki Bakı, həmişəki kimi, gəncləşir və gözəlləşir. Onun özünəməxsus memarlığı var. İnsan burada gördüklərinə hər dəfə sevinir. Buna görə öz adımdan Sizi təbrik etmək istərdim ki, bu gün müasir Bakı daha da gözəlləşir.

Bizim ikitərəfli münasibətlərimizə gəldikdə, Siz də dediyiniz kimi, siyasət məsələsini, əlbəttə ki, bərabər xatırladıq. İqtisadi məsələlərə gəldikdə, qeyd etmək istərdim ki, onlar yüksələn xətt üzrə inkişaf edir və belə də olmalıdır. Sevindirici haldır ki, enerji təhlükəsizliyi məsələlərində biz eyni mövqedəyik. Ümumiyyətlə, Sizə təşəkkür edirəm ki, bu gün biz nəqliyyat və tranzit dəhlizlərini nəinki regionda, daha geniş miqyasda birlikdə inkişaf etdiririk. Sevindiricidir ki, bizdə bütün bu məsələləri İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya əlaqələndirir. Buna görə dəvət üçün Sizə bir daha təşəkkür etmək, dövləti fəaliyyətinizdə bundan sonra da uğurlar diləmək, ən xoş arzularımı bildirmək, qardaş Azərbaycan xalqına firavanlıq, xoşbəxtlik arzu etmək istərdim. Bir daha sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

# Qoşulmama Hərəkatı beynəlxalq sülh və təhlükəsizliyə töhfə verir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Prezident Nikolas Maduro Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün yüksək səviyyədə təşkil olunduğunu qeyd etdi və Prezident İlham Əliyevə bu Zirvə görüşünə sədrliyinə görə minnətdarlığını ifadə etdi. Söhbət zamanı Azərbaycanın Qoşulmama Hərəkatına uğurla sədrlik edəcəyinə əminlik ifadə olundu.

Görüşdə Bandunq prinsiplərinin dövlətlərarası münasibətlərdə mühüm rolu xüsusi qeyd olundu və bu prinsiplər əsasında Qoşulmama Hərəkatının beynəlxalq sülh və təhlükəsizliyə töhfə verdiyi vurğulandı. Bandunq prinsipləri, xüsusilə dövlətlərin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və onların daxili işlərinə qarışılmamasının beynəlxalq münasibətlərin təməl prinsipləri olmasının vacibliyi bildirildi. Söhbət zamanı həmçinin Qoşulmama Hərəkatı çərçivəsində üzv dövlətlər arasında həmrəyliyin, qarşılıqlı dəstəyin və əməkdaşlığın gücləndirilməsinin önəmi bildirildi.

# Xocalıda baş verənlər 10-dan çox dövlət tərəfindən soyqırımı kimi tanınır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Cibuti Respublikasının Prezidenti İsmail Ömər Qelleh ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Cibuti Prezidenti Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Prezident İsmail Ömər Qelleh Azərbaycanın qonşu dövlətin təcavüzünə məruz qaldığını, münaqişənin həlli ilə bağlı Azərbaycanın haqlı tələbinin legitim xarakter daşıdığını vurğuladı. Dövlət başçısı Cibuti Milli Assambleyasında Xocalıda baş verənlərin soyqırımı kimi tanınması ilə bağlı qətnamənin qəbul edildiyini xatırlatdı.

Prezident İlham Əliyev ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın və qarşılıqlı dəstəyin vacibliyini qeyd etdi. Azərbaycan Prezidenti Xocalıda baş verənlərin 10-dan çox dövlət tərəfindən soyqırımı kimi tanındığını bildirdi. Dövlətimizin başçısı Cibuti Milli Assambleyasının Xocalı soyqırımı ilə bağlı qəbul etdiyi qətnamənin yüksək qiymətləndirildiyini nəzərə çatdırdı.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına dair fikir mübadiləsi aparıldı.

# Bakı Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi ziyafət verilib

**Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin rəhbərlərinin şərəfinə rəsmi ziyafət verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ziyafətdə iştirak ediblər.**
**Dövlət başçısı rəsmi ziyafətdə çıxış etdi.**





## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Mən sizin hamınızı bir daha salamlayır, "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Zirvə görüşümüzün birinci günü başa çatır. Sabah işimizi davam etdirəcəyik. Hərəkata üçillik sədrlik səlahiyyətlərinin yekdilliklə Azərbaycana verilməsinə görə bütün üzv dövlətlərə təşəkkürümü bildirirəm.

Azərbaycan öz prioritetlərini tarixi Bandunq prinsipləri üzərində quracaqdır. Məqsədimiz üzv dövlətlərlə birgə Qoşulmama Hərəkatının beynəlxalq münasibətlər sistemindəki rolunu və nüfuzunu daha da yüksəltmək, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, dayanıqlı inkişafa və ədalətin təmin olunmasına töhfələr verməkdir.

Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasəti ilə üst-üstə düşür.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Qoşulmama Hərəkatının sənədlərində əks olunan, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərarlara görə təşəkkürümü bildirirəm. Biz bu dəstəyi yüksək qiymətləndiririk.

Ölkəmizin hərəkata sədrliyi dövründə üzv dövlətlər arasında həmrəylik və qarşılıqlı dəstək münasibətlərinin təşviqi prioritetimiz olacaqdır. Biz, həmçinin üzv ölkələr arasında mövcud olan məsələlərin, yarana biləcək problemlərin həllinə kömək göstərməyə çalışacağıq.

BMT Baş Assambleyasından sonra üzv dövlətlərin sayına görə ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatının bu iki gün ərzində - bu gün və sabah Bakıda keçirilən Zirvə görüşü dünya miqyasında ən önəmli hadisədir.

Ümid edirəm ki, nümayəndə heyətlərinin üzvləri imkan tapıb paytaxt Bakı ilə tanış olacaqlar. Bakı dünyanın ən qədim şəhərlərindən biridir. Ən azı 20 min il tarixi olan Qobustan petroqlifləri, VI əsrə aid olan Qız qalası, XII əsrdə inşa edilmiş İçəri şəhər, Qala divarları və Şirvanşahlar Sarayı kimi abidələrimiz UNESKO-nun Ümumdünya İrs Siyahısına daxildir. Üç ay bundan əvvəl Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında qədim Azərbaycan şəhəri olan Şəkinin tarixi mərkəzi və Şəki Xan Sarayı Ümumdünya İrs Siyahısına daxil edilmişdir.



Azərbaycan qədim tarixə, zəngin mədəniyyətə malikdir. Ölkəmizdə mövcud olan tarixi abidələr bunu əyani şəkildə təsdiq edir. Azərbaycan ərazisində eramızdan əvvəl birinci əsrdə yaradılmış və böyük bir ərazini əhatə etmiş Qafqaz Albaniyasına aid çoxlu tarixi abidələrimiz mövcuddur. Belə abidələrdən biri də Şəki rayonunun Kiş kəndindəki alban məbədidir. On üç əsr bundan əvvəl, 743-cü ildə inşa olunmuş Şamaxı Cümə məscidi Qafqazda və Yaxın Şərqdə ən qədim məscidlərdən biridir. Zaman-zaman təbii fəlakətlərdən və qəsdlərdən zərər çəkmiş bu qədim məsciddə sonuncu dəfə mənim sərəncamımla əsaslı təmir və bərpa işləri aparılmış, 2013-cü ildə məscidin açılışı olmuşdur. Bakı yaxınlığında atəşpərəstliyin erkən Orta əsrlərə aid Atəşgah məbədi mövcuddur. Bizim dini və etnik müxtəlifliyimiz böyük sərvətimizdir. Bu il biz qədim Şamaxı şəhərində dünyaya gəlmiş böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyini qeyd edirik. Mənim sərəncamımla 2019-cu il Azərbaycanda "Nəsimi ili" elan olunmuşdur. Azərbaycan dünya mədəniyyətinə Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, böyük sərkərdə və şair Şah İsmayıl Xətai və digər dühalar bəxş etmişdir. Onların əsərləri dünya ədəbiyyatının inciləri sırasına daxildir.

Bakı şəhəri müntəzəm olaraq sanballı beynəlxalq tədbirlərə evsahibliyi edir. Bunların sırasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu, Dünya Dini Liderlərinin Forumunu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu qeyd etmək olar. 2008-ci ildən bizim təşəbbüsümüzlə həyata keçirilən "Bakı Prosesi" və onun məntiqi davamı olaraq təsis edilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal platforma kimi BMT Baş Assambleyasının qətnamələri ilə dəstəklənir. Gələn ay isə ölkəmizdə Dünya Dini Liderlərinin II Sammiti keçiriləcəkdir. 2015-ci ildə Azərbaycanda keçirilmiş I Avropa Oyunlarında, 2017-ci ildə ölkəmizdə təşkil olunmuş IV İslam Həmrəyliyi Oyunlarında ümumilikdə Avropa və müsəlman dünyasını təmsil edən 104 ölkədən idmançılar iştirak etmişlər. Söz düşmüşkən, Azərbaycan komanda hesabında Avropa Oyunlarında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında isə birinci yeri tutmuşdur. İdman Azərbaycanın dövlət siyasətini təşkil edir. Rioda keçirilmiş son Yay Olimpiya Oyunlarında ölkəmiz qazanılan medalların sayına görə dünyada 14-cü, Avropa ölkələri arasında 7-ci, müsəlman aləmində isə 1-ci yeri tutmuşdur. Onu da deyim ki, hər il Bakı şəhəri 500 milyon tamaşaçısı olan "Formula-1" yarışlarına da evsahibliyi edir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bizim tarixi abidələrimizlə yanaşı, gözəl təbiətimiz, mülayim iqlimimiz, zəngin mətbəximiz və ən əsası isə qonaqpərvər xalqımız var. Müasir infrastruktura malik Bakı şəhəri isə dünyanın ən gözəl və təhlükəsiz şəhərlərindən biridir. Ümid edirəm ki, nümayəndə heyətləri buradan ən xoş təəssüratlarla ayrılaraq Bakıya bir daha qayıtmaq istəyəcəklər. İnanıram ki, Bakı haqqında qəlbinizdə daim xoş xatirələr qalacaqdır.

Sağ olun.

❖ ❖ ❖

Rəsmi ziyafət konsert proqramı ilə davam edib.

# Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının xanımları Heydər Əliyev Mərkəzində olublar

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva qonaqlarla görüşüb

Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının xanımları oktyabrın 25-də Heydər Əliyev Mərkəzində olublar.





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva qonaqlarla görüşüb.

Qonaqlar əvvəlcə Heydər Əliyev Mərkəzi ilə tanış olublar. Onlara məlumat verilib ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

"Azərbaycan inciləri" sərgisi ilə tanış olan qonaqların diqqətinə çatdırılıb ki, bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirilir. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimiz orijinal şəkildə - səsli formada təqdim olunur. Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Sonra qonaqlar "Musiqi alətləri: birlik və müxtəliflik" sərgisinə də baxdılar. Ekspozisiyada Heydər Əliyev Fondunun müxtəlif mənbələrdən topladığı nadir kolleksiya - XVIII-XX əsrlərə aid 200-dək musiqi aləti nümayiş olunur. Sərgidə Azərbaycan musiqi mədəniyyəti tarixinə də geniş yer verilib. Burada 50-dək milli musiqi aləti yer alıb. Sərginin muğam otağında Azərbaycanın tanınmış xanəndələrinin ifalarından ibarət videoçarxlar, ekspozisiyadakı monitorlarda isə UNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş Azərbaycan muğamı, aşıq sənəti, tar və kamança ifaçılığına aid musiqi nümunələri təqdim edilir. Sərgidə hər bir musiqi alətini seyr etməklə yanaşı, onu dinləmək də mümkündür.

Daha sonra qonaqlar "Kukla incəsənətdə" sərgisi ilə tanış olublar. Sərgidə dünyanın müxtəlif ölkələrinin müəlliflərinin əl işi olan 230 kukla nümayiş etdirilir. Ekspozisiyadakı sənət nümunələrinin əksəriyyəti tək nüsxədə hazırlanıb və yüksək bədii dəyərə malikdir. Həmin əsərlərin çoxu beynəlxalq kukla festivalları və biennalelərində qalib olub. Sərgidə çini, kağız, plastik, taxta və parçadan hazırlanan ənənəvi kuklalarla yanaşı, müasir texnologiyalardan istifadə olunaraq yaradılan modern kuklalar da təqdim edilir. Sərgidə kuklalar 11 müxtəlif mövzu üzrə bölünüb. Belə ki, ekspozisiyada geyim tarixi, yumoristik obrazlar, bayram simaları, İçəri şəhər sakinləri, nağıl qəhrəmanları, taxta kuklalar və digər mövzularda eksponatlarla tanış olmaq mümkündür. Sərginin hər bir eksponatı ilə tanışlıq eyni zamanda kukla sənətinin incəliyini, inkişaf tarixini izləməyə imkan yaradır.

Sərgilərlə tanışlıqdan sonra keçirilən görüşdə Qoşulmama Hərəkatının əhəmiyyətinə toxunan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti **Mehriban ƏLİYEVA** dedi:



- Əziz xanımlar, sizi salamlayıram. Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak etmək üçün Azərbaycana xoş gəlmisiniz. İnanıram ki, BMT-yə üzv dövlətlərin üçdəiki hissəsini özündə birləşdirən Qoşulmama Hərəkatının Bakı Zirvəsi Hərəkatın gələcək inkişafına və üzv dövlətlərin münasibətlərinin həmrəylik və qarşılıqlı anlaşma ruhunda möhkəmlənməsinə mühüm və fərqli töhfəsini verəcəkdir.

Azərbaycan müstəqilliyini 1991-ci ildə bərpa etmişdir. Ötən illər ərzində, bütün çətinliklərə baxmayaraq, ölkəmiz sürətlə inkişaf edib, müstəqilliyini qoruyub saxlayıb və ictimai-siyasi həyatın bütün sahələrində böyük nailiyyətlər qazanıb. Azərbaycan dünya birliyində etibarlı tərəfdaş və məsuliyyətli üzv kimi tanınır.

Əziz xanımlar, baxmayaraq ki, biz müstəqil ölkə kimi gəncik, lakin Azərbaycan qədim tarixə və zəngin mədəniyyətə malik olan ölkədir. Əsrlər boyu bu məkanda müxtəlif sivilizasiyaların, dinlərin, millətlərin nümayəndələri sülh və qarşılıqlı hörmət şəraitində yaşayıb. Bu gün də Azərbaycan dövləti və Azərbaycan xalqı bu ənənələri qoruyub saxlayır. Sülh mədəniyyətinin təbliğ, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviq edilməsinə ölkəmizdə xüsusi diqqətlə yanaşılır. Təsadüfi deyil ki, son illər Azərbaycan bu sahədə tanınmış beynəlxalq platformaya çevrilib. Son illər ölkəmizdə bir sıra möhtəşəm, mötəbər beynəlxalq forumlar, görüşlər, sammitlər keçirilib. Qoşulmama Hərəkatının XVIII Zirvəsinin məhz Azərbaycanda keçirilməsi bunun növbəti sübutudur. Gələn üç il ərzində ölkəmiz Qoşulmama Hərəkatına sədrlik edəcək və mən əminəm ki, bu illər ərzində öz fəaliyyətini məhz bu prinsiplər - əməkdaşlıq, tərəfdaşlıq, qarşılıqlı hörmət, ölkələrin suverenliyinə və ərazi bütövlüyünə dəstək şəklində həyata keçirəcək.

Əziz dostlar, əziz xanımlar, bu gün görüş keçirdiyimiz Heydər Əliyev Mərkəzi dünya şöhrətli memar Zaha Hadidin ölməz əsəridir. Mərkəz bir tərəfdən nadir memarlıq abidəsidir, digər tərəfdən müasir Bakının simasıdır, simvoludur. Qərblə Şərqin tarixini, memarlığını, mədəni abidələrini özündə birləşdirən Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Mən ümidvaram ki, siz vaxt tapıb paytaxtımızla daha yaxından tanış olacaqsınız, insanlarımızın qonaqpərvərliyini hiss edəcəksiniz.

Əziz xanımlar, bir daha sizə xoş gəlmisiniz deyirəm. Təmsil etdiyiniz ölkələrə və xalqlara sülh və əmin-amanlıq arzulayıram. Sizin hər birinizə möhkəm cansağlığı və uğurlar diləyirəm.

# Moskvada MDB Hökumət Başçıları Şurasının iclası keçirilib

Oktyabrın 25-də Moskvada MDB Hökumət Başçıları Şurasının iclası keçirilib.





AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanın Baş Naziri Əli Əsədov iştirak edib. "Skolkovo" Texnoparkında keçirilən tədbirdə MDB hökumət başçıları iqtisadi və humanitar sahələrdə qarşılıqlı fəaliyyətin aktual məsələlərini müzakirə ediblər.

MDB Hökumət Başçıları Şurasının üzvləri əvvəlcə məhdud tərkibdə, sonra isə geniş tərkibdə görüş keçiriblər. İclasın gündəliyinə 20-dək sənəd daxil edilmişdi.

Görüşdə MDB-yə üzv dövlətlərdə iqtisadiyyatların rəqabətqabiliyyətliyinin, ölkələrin iqtisadi inkişafının, əhalinin rifah halının və həyat keyfiyyətinin artırılmasında başlıca rol oynayan rəqəmsal inkişaf üçün lazımi şəraitin yaradılmasına dair fikir mübadiləsi aparılıb, MDB ölkələrinin informasiya təhlükəsizliyinin təmin edilməsi strategiyası haqqında qərar qəbul edilib. Strategiya siyasi, iqtisadi, elmi-texniki, sosial, hərbi, ekoloji sahələrdə mövcud təhdidlər şəraitində MDB ölkələrinin informasiya təhlükəsizliyi istiqamətində əməkdaşlığının səmərəliliyinin artırılmasına, səylərin birləşdirilməsinə yönəlib. Sənəddə informasiya təhlükəsizliyi sahəsində birgə razılaşdırılmış tədbirlərin keçirilməsi, o cümlədən təhlükəsiz və sabit internetin təmin olunması, beynəlxalq informasiya mübadiləsi, informasiya texnologiyalarından terror məqsədilə istifadə olunmasının qarşısının alınması və digər sahələrdə qarşılıqlı fəaliyyətin səmərəliliyi əksini tapıb. MDB hökumət başçıları birliyin antiinhisar orqanlarının fəaliyyətinin əsas istiqamətləri, 2019-2024-cü illərdə radionaviqasiyanın inkişafı, 1979-1989-cu illər Əfqanıstan müharibəsində itkin düşmüş hərbçilərin axtarışı, MDB ölkələrinin Oyunları və bir çox digər saziş və qərarlar imzalayıblar.

MDB Hökumət Başçıları Şurasının növbəti iclasının 2020-ci il mayın 29-da Daşkənddə keçirilməsi barədə qərar qəbul edilib.

İclasdan sonra Azərbaycanın və Rusiyanın Baş nazirləri Əli Əsədov və Dmitri Medvedyev arasında ikitərəfli görüş keçirilib. Görüşdə Azərbaycan ilə Rusiya arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Baş Nazir Dmitri Medvedyev Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayaraq, iki ölkə arasında əmtəə dövriyyəsi həcminin 25 faiz artdığını diqqətə çatdırıb. Qeyd edib ki, bu, digər MDB ölkələri ilə Rusiya arasında iqtisadi əməkdaşlığın ən yaxşı göstəricisidir.

Azərbaycanın Baş Naziri Əli Əsədov görüşün yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirib, iki ölkə arasında bütün istiqamətlərdə əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduğunu vurğulayıb. O, "Skolkovo" Texnoparkında yaradılan innovasiya imkanlarından ikitərəfli və çoxtərəfli əməkdaşlıqda istifadə edilməsi təklifinin öz bəhrəsini verəcəyini qeyd edib.

# Azərbaycanda aparılan islahatlar beynəlxalq və Avropa standartlarına uyğundur



Strasburqda Avropa Şurasına üzv dövlətlərin, eləcə də tərəfdaş, müşahidəçi qismində iştirak edən ölkələrin parlament sədrlərinin konfransında iştirak edən Milli Məclisin Sədri Oqtay Əsədovun AŞ PA-nın sədri Lilian Mori Paskye ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Avropa Şurası arasında münasibətlər geniş müzakirə edilib və perspektivlərə dair fikir mübadiləsi aparılıb.

Lilian Mori Paskye bir neçə gün əvvəl "Lanzarot konvensiyası" kimi tanınan "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının Milli Məclisdə ratifikasiya edilməsini alqışlayaraq Oqtay Əsədova təşəkkürünü bildirib. Bu konvensiyanın ölkəmiz və Avropa Şurası arasında əlaqələrin daha da inkişaf etdirilməsində önəmli rol oynayacağını vurğulayıb.

Milli Məclisin Sədri ölkəmizdə aparılan islahatlar haqqında Lilian Mori Paskyeni ətraflı məlumatlandırıb. Bildirib ki, bu islahatlar Avropa və beynəlxalq standartlara uyğundur. Azərbaycandakı ictimai-siyasi vəziyyətə toxunan Oqtay Əsədov qeyd edib ki, ölkəmizdə Avropada da bölüşülən hüquqlar, azadlıqlar təmin edilir. Müxtəlif destruktiv qüvvələr təxribatlar vasitəsilə münasibətlərimizə xələl gətirmək istəsələr də, buna nail olmayacaqlar və əməkdaşlığımız daha da möhkəmlənəcək.

Görüşdə AŞ PA-nın sədri Lilian Mori Paskye dialoqun, əlaqələrin genişləndirilməsinə töhfə verməyə və yardım etməyə həmişə hazır olduğunu bildirib.

# Azərbaycanın Müdafiə naziri NATO-nun toplantısında iştirak edib




Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 25-də Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasına töhfə verən dövlətlərin Müdafiə nazirləri səviyyəsində təşkil edilən toplantısında iştirak edib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Əfqanıstandakı təhlükəsizlik və siyasi vəziyyət, əldə olunan son nailiyyətlər, missiyanın gələcəyi və bir sıra digər məsələlər müzakirə olunub.

# Azərbaycanın Müdafiə naziri NATO Baş katibinin müavini ilə görüşüb

Brüsselə səfər çərçivəsində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 25-də NATO Baş katibinin müavini Mirça Coane ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər Azərbaycan-NATO əməkdaşlığı və perspektivləri, eləcə də regional təhlükəsizlik məsələləri haqqında fikir mübadiləsi aparıblar. M.Coane Azərbaycanın NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasına, habelə Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə görə minnətdarlığını bildirib, hərbi təhsil sahəsində və uyarlılıq platformasındakı əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində Azərbaycanın fəallığını yüksək qiymətləndirib.

Azərbaycanın Müdafiə naziri NATO-nun ölkəmizin ərazi bütövlüyünə verdiyi dəstəyə görə minnətdarlığını bildirib.

# Pakistan Prezidenti Arif Alvi Azərbaycana səfərə gəlib



Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 25-də Azərbaycan Respublikasına səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Prezident Arif Alvini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın Baş Nazirinin müavini Əli Əhmədov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər qarşılamışlar.

## Sudan Prezidenti Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak etmək üçün Azərbaycana gəlib



Sudan Respublikasının Prezidenti Abdul-Fattah Al-Burhan Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 25-də Azərbaycan Respublikasına səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Prezident Abdul-Fattah Al-Burhanı Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın Baş Nazirinin müavini Əli Əhmədov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər qarşılamışlar.

## Ekvatorial Qvineyanın Prezidenti Azərbaycana səfərə gəlib



Ekvatorial Qvineyanın Prezidenti Obiang Nguema Mbasogo Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 25-də Azərbaycan Respublikasına səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Ekvatorial Qvineyanın dövlət başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın Baş Nazirinin müavini Əli Əhmədov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər qarşılamışlar.

# Azərbaycanla İranın iqtisadi əlaqələrinin gələcək perspektivləri müzakirə olunub

Azərbaycan ilə İran arasında iqtisadi əlaqələrin gələcək perspektivləri müzakirə edilib.



İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 25-də İqtisadiyyat naziri Mikayıl Cabbarov İran İslam Respublikasının İqtisadi İşlər və Maliyyə naziri Fərhad Dejpəsənd və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə iki ölkə arasında iqtisadi əlaqələrin mövcud vəziyyəti və gələcək perspektivləri, həmçinin müxtəlif sferalarda strateji əməkdaşlıq əlaqələri müzakirə edilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Tanzaniyanın Baş Naziri Azərbaycana səfərə gəlib



Tanzaniyanın Baş Naziri Kassim Majaliva Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 25-də Azərbaycan Respublikasına səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Tanzaniyanın Baş Nazirini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın Baş Nazirinin müavini Əli Əhmədov, Xarici İşlər nazirinin müavini Mahmud Məmməd-Quliyev və digər rəsmi şəxslər qarşıladılar.

## Esvatininin Kralı III Msvati Azərbaycanda səfərdədir



Esvatininin Kralı III Msvati Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 25-də Azərbaycan Respublikasına səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Kral III Msvatini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın Baş Nazirinin müavini Əli Əhmədov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər qarşılamışlar.

# Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi təşkilatı daha da gücləndirəcək

Dünyada zorakılığın artdığı bir dövrdə Qoşulmama Hərəkatı mühüm əhəmiyyətə malik təşkilatdır. Bu fikirləri AZƏRTAC-a Kuba dövlət televiziyasının müxbiri Hektor Martines Marero bildirib.

O qeyd edib ki, Qoşulmama Hərəkatı ölkələr arasında multikulturalizm, sülhü tərənnüm edən və dəstəkləyən təşkilatdır. Kubalı jurnalist əminliklə deyib ki, Azərbaycan bu Hərəkatın sədri olaraq təşkilatı daha da gücləndirəcək. Azərbaycanla bağlı təəssüratlarını da bölüşən Hektor Martinez Marero bildirib ki, o, ali təhsilini keçmiş SSRİ məkanında alıb və hələ həmin vaxtlar Bakıya gəlməyi çox arzulayırdı. "Mənim bu arzum 30 ildən sonra reallaşdı. Təəssüratlarım çox gözəldir. Bakı keçmişlə müasirliyin birləşdiyi heyrətamiz şəhərdir. Bir tərəfdən qədim binalar, digər tərəfdən müasir memarlıq nümunələri zövq oxşayır" deyə kubalı jurnalist vurğulayıb.

# İran Prezidenti Həsən Ruhaninin Azərbaycana səfəri başa çatıb



İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin Azərbaycan Respublikasına səfəri oktyabrın 25-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, Prezident Həsən Ruhanini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikası Baş Nazirinin müavini Şahin Mustafayev, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Xarici İşlər nazirinin müavini Mahmud Məmməd-Quliyev və digər rəsmi şəxslər yola saldılar.

## Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfəri başa çatıb



Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycan Respublikasına səfəri oktyabrın 25-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, Prezident Qurbanqulu Berdiməhəmmədovu Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın Energetika naziri Pərviz Şahbazov, Xarici İşlər nazirinin müavini Mahmud Məmməd-Quliyev və digər rəsmi şəxslər yola saldılar.

# Xarici İşlər Nazirliyində bir sıra görüşlər olub





Prezident İlham Əliyev və İordaniya Kralı II Abdullah arasında dostluq münasibətlərinin yüksək səviyyədə olması nəticəsində Azərbaycan ilə İordaniya arasında sıx tərəfdaşlıq münasibətləri formalaşıb. Son illər əlaqələrimiz daha da möhkəmlənərək bir çox sahələri əhatə edib. Kral II Abdullah Azərbaycan və İordaniya arasında nəinki Qoşulmama Hərəkatı, həmçinin ikitərəfli müstəvidə mövcud münasibətləri yüksək qiymətləndirir.

Bu barədə Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Toplantısında iştirak edən İordaniya Haşimilər Krallığının Xarici İşlər naziri Ayman Safadi bildirib.

"İordaniya Kralı II Abdullahın adından Azərbaycanın dövlət müstəqilliyinin ildönümü münasibətilə xalqınızı təbrik edirəm. Prezident İlham Əliyevin bugünkü tədbirdəki çıxışında dediyi kimi, Azərbaycanın əldə etdiyi nailiyyətlər ölkənizin uğurlu inkişaf yolunda olduğunu göstərir. İnanırıq ki, Prezidentinizin müdrik siyasəti nəticəsində ölkənizin Qoşulmama Hərəkatına sədrliyi müddətində təşkilat beynəlxalq sülhün möhkəmləndirilməsi və ümumi məqsədlərə çatmaq istiqamətində yeni irəliləyişə nail olacaq. İordaniya Krallığı olaraq biz də təşkilatın bu nəcib məqsədlərə çatması istiqamətində Azərbaycanla əməkdaşlıq etməyə hazırıq", - deyə nazir əlavə edib.

❖ ❖ ❖

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çərçivəsində Küveyt Dövlətinin Baş Nazirinin müavini, Xarici İşlər naziri Sabah Xalid Al Hamad Al Sabah ilə görüşüb.

XİN-in mətbuat xidmətindən bildiriblər ki, nazirlər iki ölkə arasında mövcud olan əməkdaşlıq münasibətləri və ikitərəfli əlaqələrin genişləndirilməsi perspektivləri barəsində fikir mübadiləsi aparıblar. Azərbaycanı Qoşulmama Hərəkatına sədrliyi münasibətilə təbrik edən Sabah Xalid Al Hamad Al Sabah XVIII Zirvə Görüşünün yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırıb.

Görüş zamanı ikitərəfli siyasi münasibətlərin cari vəziyyətini yüksək qiymətləndirilib və Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın növbəti iclasının tezliklə keçirilməsinin zəruriliyi vurğulanıb.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

❖ ❖ ❖

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çərçivəsində Sinqapurun Müdafiə və Xarici İşlər üzrə Baş dövlət katibi Mohamad Maliki Bin Osman ilə görüşüb.

Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, görüşdə həmsöhbətlər iki ölkə arasında mövcud olan siyasi və iqtisadi əməkdaşlıq münasibətlərinin qarşılıqlı faydalı şəkildə inkişaf etdiyindən məmnunluq ifadə ediblər. Azərbaycan ilə Sinqapur arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinə toxunan tərəflər, qarşılıqlı faydalı əməkdaşlığın açdığı bütün bu imkanlardan daha səmərəli şəkildə istifadə edilməsi üçün beynəlxalq təşkilatlar və forumlar çərçivəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd ediblər.

Sinqapurla Azərbaycan arasında ikitərəfli iqtisadi-ticari əməkdaşlığın müsbət məcrada inkişaf etdiyini qeyd edən Dövlət katibi, Sinqapur və Azərbaycan şirkətləri arasında sıx əməkdaşlıq münasibətlərinin mövcud olmasını məmnunluqla dilə gətirib və ölkələr arasında mövcud olan perspektivlərdən faydalanmağın, bu xüsusda İKT və s. sahələrdə təcrübələrin bölüşdürülməsinin əhəmiyyətini vurğulayıb.

Öz növbəsində nazir Elmar Məmmədyarov Sinqapurun Azərbaycan üçün əsas tərəfdaşlardan olduğunu məmnuniyyətlə qeyd edib, ikitərəfli əməkdaşlığa əlavə təkan verilməsi üçün müqavilə-hüquq bazasının daha da inkişaf etdirilməsinin vacibliyini bildirib.

Sonra Sinqapur rəsmisi Azərbaycanın QH-də sədrliyinin uğurlu olacağına və ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf edəcəyinə dair əminliyini ifadə edib.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çərçivəsində Misir Ərəb Respublikasının Xarici İşlər naziri Sameh Şükri ilə görüşüb.

Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan və Misir arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib, əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Sameh Şükri Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün mükəmməl səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan tərəfinə minnətdarlığını ifadə edib.

Elmar Məmmədyarov iki ölkə arasında mövcud olan əməkdaşlıq münasibətlərinin cari vəziyyətindən məmnunluğunu ifadə edib, enerji sahəsində əməkdaşlığı xüsusi vurğulayıb. Həmçinin turizm sahəsində əməkdaşlığın daha da genişləndirilməsi perspektivlərindən bəhs olunub.

Tərəflər iki ölkə arasında müqavilə-hüquq bazasının daha da inkişaf etdirilməsinin vacibliyini qeyd ediblər.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çərçivəsində İordaniya Haşimilər Krallığının Xarici İşlər və Diaspor naziri Ayman Safadi ilə görüşüb.

Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, görüşdə iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edilib.

A.Safadi Qoşulmama Hərəkatının Nazirlər Konfransının yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür edib.

Görüşdə Yaxın Şərq bölgəsində cərəyan edən proseslər ətraflı şəkildə müzakirə olunub.

Tərəflər, həmçinin Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın davam etdirilməsinin vacibliyini qeyd ediblər.

❖ ❖ ❖

Azərbaycanın mötəbər beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına evsahibliyi etməsi bizi çox qürurlandırır. Bu çox gözəl təşəbbüsdür.

Bu fikirləri müsahibəsində Banqladeş Jurnalistlər Birliyinin baş katibi Əbdül Məcid bildirib.

O qeyd edib ki, Qoşulmama Hərəkatı dünyada sülhün güclənməsində mühüm rolu olan təşkilatdır. Banqladeş də bu təşkilatın üzvü olan bir ölkə kimi təcavüzə qarşı çıxır və sülhü dəstəkləyir. "Ümid edirəm ki, buradakı plenar iclaslarda aparılan müzakirələr nəticəsində yer üzündə sülhü bərqərar etmək naminə mühüm addımlar atılacaq", - deyə Əbdül Məcid vurğulayıb.

Azərbaycana ilk dəfə səfər etdiyini deyən Banqladeş Jurnalistlər Birliyinin baş katibi Bakının çox gözəl, cazibədar və müasir şəhər olduğunu bildirib.

**AZƏRTAC**

# Hörmətin, inamın və etimadın təzahürü

Dünəndən Bakıda öz işinə başlayan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü və bu təşkilata sədrliyin Azərbaycana təhvil verilməsi ölkəmizin müstəqilliyi dövründə ən mühüm siyasi uğurlarından biri kimi tarixə düşdü. Tədbirdəki nitqində Prezident İlham Əliyev bunu ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürü kimi qiymətləndirdi.

## 60-a yaxın ölkənin dövlət və hökumət başçısı Bakıdadır

Bu, dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda keçirilən ən böyük və mötəbər siyasi tədbirdir. Bunu Zirvə görüşündə iştirak etmək üçün 60-a yaxın ölkənin dövlət və hökumət başçılarının, həmçinin beynəlxalq təşkilatların rəhbərlərinin Bakıya gəlməsi də təsdiqləyir. Ümumilikdə isə 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri bu beynəlxalq tədbirdə iştirak edir.

Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından sonra dünyada ikinci ən böyük beynəlxalq siyasi təşkilat olaraq çoxtərəfli əməkdaşlığın əsas hərəkətverici qüvvələrindən biridir. Hərəkat beynəlxalq siyasi məsləhətləşmələr və praktik əməkdaşlıq üçün geniş və əhatəli bir platformanı təmin edir. Ona görə də yarandığı vaxtdan bəri hərəkat beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmlənməsində əsas rol oynayır. Soyuq müharibənin sonu hərəkatın beynəlxalq münasibətlər sistemindəki rolunu azaltmayıb, əksinə, artan çağırışlar fonunda əhəmiyyətini artırıb. Bu gün qarşıda duran əsas vəzifəsi yarandığı dövrdə olduğu kimi, hələ də aktuallığını saxlayan hərəkatın təməl prinsiplərini təbliğ etmək və dəstəkləməklə mövcud geosiyasi mənzərədəki yeni reallıqlara adekvat olması məqsədilə hərəkatın rolunu aktivləşdirməkdən ibarətdir.

Azərbaycan Qoşulmama Hərəkatının sonuncu iştirakçısıdır. Ölkəmiz cəmi 8 il əvvəl - 2011-ci ilin may ayında hərəkatın tamhüquqlu üzvü olub. Lakin bu qısa dövrdə təşkilat çərçivəsində olduqca səmərəli və faydalı fəaliyyət həyata keçirib. XVIII Zirvə Görüşündə Prezident İlham Əliyevin nitqinin əvvəlində qeyd etdiyi kimi, Qoşulmama Hərəkatında olduğu qısa müddət ərzində ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazanmışdır.

Bəli, respublikamız ilk gündən Qoşulmama Hərəkatının ruhuna və prinsiplərinə hörmətlə yanaşıb. Rəsmi Bakı bütün dövlətlərlə əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş xarici siyasət kursu və heç bir hərbi bloka qoşulmadan tarazlı siyasət həyata keçirir. Ona görə hərəkata üzv olduğu nisbətən qısa müddət ərzində Azərbaycan özünün uğurlu xarici siyasəti sayəsində bu təsisat daxilində böyük nüfuz və etimad qazanıb. Ölkəmizə olan etimadın və dövlətimizin artan nüfuzunun göstəricisidir ki, qısa müddət ərzində üzv olmasına baxmayaraq, üzv dövlətlər tərəfindən yekdilliklə Azərbaycanın bu təşkilata sədrliyi dəstəklənib. Belə ki, 2016-cı ilin sentyabrında hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının XVII Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illərdə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdilliklə qərar qəbul olunub.

## Hərəkata sədrlik Azərbaycana keçdi

Beləliklə, XVIII Zirvə Görüşünün ən mühüm anı Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana keçməsi oldu. Sədrliyi Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Madurodan təhvil alan Prezident İlham Əliyev bunu dünya ölkələrinin əksəriyyətini öz sıralarında birləşdirən Qoşulmama Hərəkatının Azərbaycanın siyasətinə verdiyi dəstək kimi qiymətləndirdi və bu qərara görə bir daha təşəkkürünü bildirdi.

İlham Əliyev Azərbaycanın sədrliyi müddətində hərəkatın konkret fəaliyyət prioritetlərini də diqqətə çatdırdı. Bunlar beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərin artırılması, hərəkat çərçivəsində iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi, ən az inkişaf etmiş, dənizə çıxışı olmayan kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərə diqqət yetirilməsi kimi məsələlərdir.

XVIII Zirvə Görüşünün ilk günündə İlham Əliyev dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın keçdiyi yol, sosial-iqtisadi və demokratik inkişaf istiqamətində əldə etdiyi uğurlar, ölkəmizdəki multikulturalizm və tolerantlıq mühiti barədə ətraflı məlumat verdi. Bildirdi ki, Azərbaycanın yeganə problemi ərazisinin bir qisminin Ermənistan tərəfindən işğal edilməsidir. Qoşulmama Hərəkatının indiyə qədər qəbul olunmuş sənədlərində münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə etdiklərinə görə hərəkata üzv dövlətlərə təşəkkürünü bildirən İlham Əliyev dedi: "Qarabağ əzəli Azərbaycan torpağıdır və münaqişə yalnız Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır".

Beləliklə, yüksək beynəlxalq nüfuzu Azərbaycana qurumun tam etimadını qazanaraq ona sədrlik etmək imkanı yaradıb. Artıq Azərbaycan üçün yeni tarixi missiya başlayır. Ölkəmizin bu hərəkatın sədrliyini üzərinə götürməsi və onun qarşıdan gələn uğurlarına töhfə vermək əzmində olması olduqca qürurvericidir. Əminliklə söyləmək olar ki, ölkəmiz sədrliyi müddətində hərəkatın beynəlxalq münasibətlər sistemindəki rolunu daha da gücləndirəcək, onun fəaliyyətinə yeni töhfələr verəcək.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Maliyyə Nazirliyi ilə UNCTAD Borcların İdarə olunması və Maliyyə Təhlili Sisteminin satın alınması və tətbiqi üzrə İş Planını imzalayıb

Maliyyə naziri Samir Şərifov oktyabrın 25-də Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak etmək üçün ölkəmizə səfərə gələn Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransının (UNCTAD) baş katibi Mukhisa Kituyi ilə görüşüb.




Maliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanın BMT strukturlarında fəaliyyəti məmnunluqla qeyd olunub, cari ilin sentyabrında nazirlik ilə UNCTAD arasında Borcların İdarə olunması və Maliyyə Təhlili Sistemi (DMFAS) Proqramının satın alınması və tətbiqi barədə imzalanan sənədin əhəmiyyətindən bəhs olunub.

S.Şərifov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dövlət maliyyə idarəetməsi, o cümlədən dövlət borcunun idarə olunması sahəsində həyata keçirilən islahatlar, dövlət borcunun idarə edilməsi strategiyası, habelə bu sahəyə ayrılan diqqət barədə məlumat verib.

Bu günlərdə dövlət başçısının fərmanı ilə Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin yaradıldığını qeyd edən nazir bildirib ki, dövlət borcunun idarə olunması strategiyasının ardıcıl şəkildə həyata keçirilməsi borcun uzunmüddətli dayanıqlı səviyyədə saxlanılmasına, Azərbaycanın investorlar üçün cazibədar olaraq qalmasına, borc almaq qabiliyyətinin yüksək olmasına xidmət edir: "Müasir maliyyə sisteminin inkişafını borclanma olmadan təsəvvür etmək çətindir. Düzgün borclanma ölkələrin inkişafına, iqtisadi artıma şərait yaradır. Lakin düşünülmüş borclanma strategiyasının, dövlət borclanması sahəsində hesabatlılığın və uçotun olmaması ifrat borclanmaya səbəb olmaqla ölkələrin və xalqların rifahı üçün ağır maliyyə yükünə çevrilə, ölkələrin iqtisadi artımı üçün təhdid yarada bilər".

"Dövlət borcunu idarə edən effektiv sistem dayanıqlı iqtisadi artım, idarəetmənin təkmilləşdirilməsi və yoxsulluğun azaldılması üçün zəruridir" deyən Mukhisa Kituyi isə Azərbaycanın dövlət borcunun idarə olunması sahəsində qazandığı nailiyyətləri yüksək qiymətləndirib. Baş katib 70-dək ölkənin maliyyə nazirliklərində və mərkəzi banklarında borc məlumatlarının etibarlı şəkildə idarə edilməsinə dəstək verən Borcların İdarə olunması və Maliyyə Təhlili Sisteminin Azərbaycanda da tətbiqinin borc idarəetmə prosedurlarının daha da asanlaşdıracağını, daha geniş təhlillərin aparılmasını, həmçinin borcla əlaqədar hesabatların daha şəffaf və qəbul olunmuş standartlara uyğun hazırlanmasını təmin edəcəyini vurğulayıb.

Sonra maliyyə naziri S.Şərifov və UNCTAD-ın baş katibi M.Kituyi Maliyyə Nazirliyi ilə UNCTAD arasında DMFAS Proqramının satın alınması və tətbiqi üzrə İş Planını imzalayıblar. Ümumi dəyəri 545 min İsveçrə frankı və icra müddəti 3 il olan layihə Asiya İnkişaf Bankı (ADB) və İsveçrənin İqtisadi İşlər üzrə Dövlət Katibliyinin (SECO) maliyyə dəstəyi (qrant şəklində) ilə həyata keçiriləcək. Layihə çərçivəsində proqram təminatının Maliyyə Nazirliyinin daimi istifadəsinə verilməsi və nazirliyin əməkdaşlarına müvafiq təlimlərin keçirilməsi nəzərdə tutulur.

Borcların İdarə olunması və Maliyyə Təhlili Sistemi proqramının tətbiqi Azərbaycana borc məlumatlarının etibarlı saxlanılması, daha səmərəli şəkildə idarə edilməsi dövlət borcları ilə əlaqədar risklərin effektiv qiymətləndirilməsini, dövlət borcunun və zəmanətlərin hesabatlılığının daha da təkmilləşdirilməsi üzrə strateji məqsədlərə nail olmaq üçün mühüm töhfə verəcək.

# NAM Gənclər Sammiti çərçivəsində ağacəkmə aksiyası keçirilib

Oktyabrın 25-də IDEA İctimai Birliyi, Gənclər və İdman Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı, Bakı Şəhər İcra Hakimiyyətinin dəstəyi, Azərbaycanda keçirilən Qoşulmama Hərəkatının (NAM) Gənclər Sammitinin gənc nümayəndələrinin iştirakı ilə ağacəkmə aksiyası keçirilib.



AZƏRTAC xəbər verir ki, Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Toplantısı çərçivəsində həmin təşkilatın ilk Gənclər Sammitinin gündəliyindəki ən əsas məsələlərdən biri dayanıqlı inkişafın təmin edilməsi, o cümlədən ekoloji problemlərin həlli üzrə qlobal səylərin gücləndirilməsidir.

Dayanıqlı inkişaf naminə birgə qlobal səylərə dəstəyin rəmzi olaraq NAM Gənclər Sammitində təmsil olunan 40 ölkənin gənc nümayəndələrinin iştirak etdiyi aksiyada paytaxtın 6-cı mikrorayonunda yerləşən köhnə dendroloji park ərazisində 100 ağac əkilib.

Məlum olduğu kimi, ağaclar iqlim dəyişikliyinin qarşısının alınmasına töhfə verir, biomüxtəlifliyin qorunmasına şərait yaradır, havanı oksigenlə zənginləşdirir, sağlam ekoloji mühit yaradır. Hesablamalara görə, dünyada hər il insanlar tərəfindən kənd təsərrüfatı və digər məqsədlər üçün təxminən 15 milyard ağac kəsilir, ümumiyyətlə isə sivilizasiya yaranandan dünyadakı ağacların həcmi 46 faiz azalıb. Ona görə də quruyan, ömrünü başa vuran və kəsilən ağacların əvəzinə daha çox sayda yerli növ ağacların əkilməsi dayanıqlı inkişafın təmin edilməsi üçün olduqca vacibdir.

IDEA İctimai Birliyi vətəndaşları yeni ağaclar əkməklə və ağac kəsintisinin qarşısını almaqla yaşıllıqların qorunmasına töhfə verməyə, üzləşdikləri qeyri-qanuni ağac kəsilməsi halları ilə bağlı xüsusi yaradılan qaynar xəttə (bütün mobil operatorlar və şəhər telefonlarından 1113) məlumat verməyə çağırır.

# *Nepalın Xarici İşlər naziri:* "Azərbaycanın belə mötəbər tədbirə evsahibliyi etməsi təqdirəlayiqdir"

"Qoşulmama Hərəkatı soyuq müharibə dövründə dünya ölkələrində yaranmış gərginliyi azaltmaq məqsədilə və dövlətlərin ərazi bütövlüyü, suverenliyinə və müstəqilliyinə hörmət kimi təməl prinsiplər əsasında yaradılmış bir blokdur. Təşkilatın əsas funksiyası inkişaf etməkdə olan dövlətlərin qeyd olunan bu təməl prinsiplərini təmin etmək və onların maraqlarını beynəlxalq aləmdə birgə müdafiə etməkdən ibarətdir. Azərbaycanın belə mötəbər tədbirə evsahibliyi etməsi təqdirəlayiqdir".



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Toplantısında iştirak edən Nepalın Xarici İşlər naziri Pradeep Kumar Qyavali deyib. O, bu tədbirin hərəkata üzv olan ölkələrin dövlət və hökumət başçılarının bir araya gələrək dünyanı narahat edən aktual problemlərin müzakirəsi və onların həlli yollarının tapılması baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib.

"Burada, həmçinin sosial, iqtisadi, turizm, iqlim dəyişikliyi və digər sahələrdə əməkdaşlığın perspektivləri sahəsində də müzakirələr aparılacaq. Bu müzakirələr ümumilikdə hərəkata üzv olan dövlətlərin inkişafına yönəlmiş əməkdaşlığın daha da güclənməsinə təkan verəcək" deyə Nepalın Xarici İşlər naziri əlavə edib.

# Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü dünya mətbuatının diqqət mərkəzindədir

Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü müxtəlif ölkələrin KİV-i tərəfindən geniş işıqlandırılır. AZƏRTAC xəbər verir ki, tədbirdə təmsil olunan ölkələrin nüfuzlu mətbuat orqanları nümayəndə heyətlərinin Zirvə görüşündə iştirakı barədə geniş xəbərlər dərc edirlər.

Malayziyanın "Bernama" xəbər agentliyi, "The Himalayan Times" qəzeti ölkənin Baş Naziri Mahathir Bin Mohamadın Zirvə görüşündə çıxışına geniş yer veriblər. Qeyd olunub ki, hökumət başçısı 16 il əvvəl Qoşulmama Hərəkatının Zirvə Görüşünün Kuala-Lumpurda keçirildiyini, Bakıda davam edən tədbirin əhəmiyyətini vurğulayıb. Baş Nazir "soyuq müharibə"nin başa çatmasından sonra hazırda aparılan ticarət müharibələrinin qlobal iqtisadiyyata və sosial vəziyyətə mənfi təsirini də qeyd edib.

Nepalın "DD News" və "The Rising Nepal" saytlarında da Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü barədə geniş hesabatlar yerləşdirilib. Nepalın Baş Naziri Khadqa Prasad Şarma Olinin tədbirdə iştirakının əhəmiyyətini vurğulayan xəbər müəllifləri qeyd ediblər ki, Azərbaycan paytaxtında dünyanın 60-a yaxın ölkəsinin dövlət və hökumət başçılarının qəbul edəcəyi bəyannamə planetimizdə sülhün və sabitliyin bərqərar olması baxımından böyük əhəmiyyət kəsb edir.

Hindistanın "Indiatimes", PTI agentlikləri və "All İndia Radio" və NDTV telekanalında yayılan xəbərlərdə Hindistanın vitse-prezidenti Muppavarapu Venkaiah Naidunun başçılıq etdiyi nümayəndə heyətinin Zirvə görüşündə iştirakı geniş şəkildə işıqlandırılıb. Qeyd olunub ki, rəsmi Dehli Qoşulmama Hərəkatına böyük əhəmiyyət verir və onun fəaliyyətində yaxından iştirak edir.

Kubanın Prezidenti Migel Diaz-Kanelin Zirvə görüşündə iştirakı və onun Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü barədə məlumat verən Kubanın "Radio Habana" radiosunun saytında Bakıda keçirilən tədbirin əhəmiyyətindən bəhs olunur və Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçildiyi vurğulanır.

Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü haqqında Eritreyanın "Tesfa", İndoneziyanın "Antara", Banqladeşin UNB (United News of Bangladesh), Şri-Lankanın "Lanka Page", İordaniyanın "The Jordan Times", Pakistanın "Times of Islamabad" və "The Business Standart" agentlikləri və saytları da geniş xəbərlər yayıblar. Bundan başqa, tədbirdə iştirak edən dövlət və hökumət başçılarının, habelə yüksəkvəzifəli nümayəndələrin sosial şəbəkələrdəki səhifələrində də Zirvə görüşü haqqında məlumatlar yerləşdirilib.

# Qoşulmama Hərəkatının Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının xanımları İçəri şəhərlə tanış olublar









Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının xanımları oktyabrın 25-də İçəri şəhərlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, İçəri şəhərdə gəzinti tarixi XII əsrə söykənən Qoşa Qala qapılarından başlayıb. Kiçik Qala küçəsi ilə gəzinti zamanı xanımlar isti təndir çörəyinə qonaq ediliblər.

Elektromobillə gəzinti zamanı qonaqlara UNESKO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan təmir, abadlıq və bərpa işləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, İçəri şəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır.

Qonaqlar orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Saray Kompleksi ilə də tanış olublar. Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçəri şəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. O, Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bugünədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

İçəri şəhər Ənənəvi İncəsənət Mərkəzi ilə tanışlıq zamanı qonaqlara burada Azərbaycana xas olan milli ornamentlərin və dizayn elementlərinin mənşəyi və onların yaradılması metodları haqqında biliklərin öyrədildiyi, müxtəlif xalq sənəti nümunələrinin beynəlxalq səviyyədə təbliğ olunduğu bildirilib.

Dövlət və hökumət başçılarının xanımları İçəri şəhərdəki "Bəylər" məscidinə gələrək burada yaradılan "Müqəddəs əmanətlər" ekspozisiyası ilə tanış olublar. Diqqətə çatdırılıb ki, ekspozisiyada islam dininin müqəddəs əmanəti olan müxtəlif dövrlərə aid qədim "Qurani-Kərim" kitabları nümayiş etdirilir.

Sonra qonaqlara Qız qalası abidəsinin qeyri-adi memarlıq özəllikləri barədə də ətraflı məlumat verilib. Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir. Qonaqlara Qız qalasında konservasiya işlərindən sonra yaradılan muzey ekspozisiyası barədə də məlumat verilib.

İçəri şəhər qonaqlarda zəngin təəssürat yaradıb.

Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının xanımları "Muğam klub"da birgə nahar ediblər.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində iqtisadi müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar görüləcək işlər müzakirə olunub





Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində transfert məbləğinin payı 2017-ci ildəki 39 faizdən ötən il 35,6 faizə, bu il isə 32,8 faizə enib. Əhaliyə sosial ödənişlərin ciddi şəkildə artdığı şəraitdə transfert məbləği azalmaqdadır. Qarşıdakı dövrdə də fondun gəlirlərində mütəmadi artımın və həmçinin idarəetmə xərclərinin optimallaşdırılmasının təmin edilməsi bu müsbət dinamikanın davam etməsinə imkan verəcək.

Bunu Prezident İlham Əliyevin yanında keçirilmiş iqtisadi müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar görüləcək işlərin müzakirəsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasında Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, nazir ölkəmizdə aparılan siyasətin mərkəzində vətəndaş amilinin dayandığını, Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramının əsas hədəfinin də məhz vətəndaş rifahının və dövlət sosial xidmətlərində vətəndaş məmnuniyyətinin təmin edilməsi olduğunu vurğulayıb. O bildirib ki, 2019-cu il həm əhalinin rifah halının yaxşılaşdırılması, həm də sosial sahədə xidmətlərin DOST layihəsi əsasında innovativ yenilikləri ehtiva edən yeni keyfiyyət mərhələsinə keçilməsi istiqamətində inqilabi addımların atılması ilə fərqlənən bir ildir. Oktyabrın 15-də Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə dövlət başçısı Azərbaycanın sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkə olduğunu qeyd edərək "Biz gələn il də ciddi sosial proqramlar icra edəcəyik, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün önəmli addımlar atılacaq" deyə bəyan etdi. Bu isə Azərbaycan Prezidentinin sosial sahə ilə bağlı islahatlar proqramının gələn il də əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində növbəti ciddi irəliləyişləri təmin edəcəyini göstərir.

S.Babayev vurğulayıb ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsi isə dövlət sosial xidmətlərinin - 132 xidmətin ölkəmiz üçün yeni brend ola bilən müasir və innovativ platformada təqdimatı təcrübəsinin formalaşmasını təmin edib. Cari il və gələn ilin ilk rübü Bakıda daha 4 DOST mərkəzi yaradılmaqla, eyni zamanda, artıq növbəti ildən DOST mərkəzləri şəbəkəsinin respublikanın regionları üzrə genişləndirilməsinə başlanılacaq.

Nazir vurğulayıb ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, qarşıdakı dövrdə də sosial sahədə islahatlar uğurla davam etdirilməklə və daha da genişləndirilməklə, bu islahatlarda əsas prioritet - idarəetmə və xidmət sahələrində şəffaflığın, vətəndaş məmnunluğu prinsipinin yüksək səviyyədə təminatı olacaq. Ölkədə ilk proaktiv xidmət kimi, 2019-cu ilin əvvəlindən pensiyaların avtomatlaşdırılmış qaydada təyinatı mexanizminə keçilib. Bu günlərdə növbəti addım kimi, uşağın doğulmasına görə birdəfəlik müavinət təyinatı da elektronlaşdırılıb və ilin sonunadək müavinət və təqaüd növü üzrə də təyinat mexanizmi elektronlaşdırılacaq.

Ünvanlı sosial yardım sisteminin də təkmilləşdirilməsi işlərinin aparıldığını qeyd edən S.Babayev ümumilikdə bu proqramın aztəminatlı ailələrə daha əlçatan olmasının təmin edilməsi işlərinin aparıldığını və proqramın əhatə dairəsinin genişlənəcəyini deyib. Bildirib ki, eyni zamanda, sosial yardım təyinatının şəffaflaşdırılması və ünvanlılığının təmin edilməsi işləri aparılır. Araşdırma və təhlillər nəticəsində nazirlik 1800 nəfərin saxta yollarla ünvanlı dövlət sosial yardımı aldığını müəyyən edib və həmin şəxslərə yönələn yardımlar dərhal dayandırılıb. Minədək şəxsin də saxta şəkildə sosial yardım aldığına dair şübhələr var. Onlarla bağlı da eyni tədbirlər görülməklə, yardımlar dayandırılacaq. Saxta yollarla sosial yardım almağa şərait yaradan, bunun üçün bilərəkdən qısamüddətli əmək müqavilələri bağlayan, yaxud əmək müqavilələrində bilərəkdən əməkhaqlarını reallıqda olduğundan az göstərməklə işçilərinin böyük qisminin sosial yardıma çıxışına süni imkan yaradanlarla bağlı da hüquq mühafizə orqanlarına müraciət olunacaq.

Nazir, həmçinin 2500-dək yanlış əlillik təyinatının da aparılan araşdırmalar nəticəsində aşkar edilərək ləğv olunduğunu, bu istiqamətdə araşdırmaların davam edəcəyini deyib, yeni əlillik təyinatlarının aparılmasına da ciddi nəzarətin həyata keçirilməsini tapşırıb. O, qeyri-rəsmi məşğulluğun qarşısının alınması tədbirlərindən bəhs edib, bu il əmək müqavilələrinin sayında artıq 138 min artımın olduğunu, əmək münasibətlərinin leqal müstəvidə qurulması ilə bağlı ciddi monitorinqin vacibliyini diqqətə çatdırıb. Bildirib ki, dövlət başçısının müvafiq sərəncamı ilə cari il sentyabrın 1-dən ölkəmizdə minimum əməkhaqqı məbləği 250 manata çatdırılıb və heç bir müəssisədə işçilərə 250 manatdan aşağı məbləğdə əməkhaqqı verilə bilməz. Ona görə bu sahəyə ciddi nəzarət edilməlidir.

Aktiv məşğulluq tədbirlərinin ildənilə gücləndirildiyini deyən S.Babayev bildirib ki, bu ilin 9 ayında 62 minə yaxın şəxs məşğulluq orqanları tərəfindən işlə təmin edilib. Bununla belə, bağlanan əmək müqavilələrinin sayında məşğulluq orqanları tərəfindən işlə təmin edilənlərin payının artırılması üçün səylər gücləndirilməlidir.

Özünüməşğulluq proqramı çərçivəsində bu il artıq 3500-dən çox şəxsə kiçik ailə təsərrüfatlarını qurmaları üçün aktivlər verildiyini qeyd edən nazir proqramın icrasında həssas qrupların iştirak səviyyəsinin daha da artırılmalı olduğunu bildirib. "İşsizin DOSTu" proqramının bu il 38 min şəxsin ödənişli ictimai işlərlə təminatına imkan verdiyini, həmin işçi qüvvəsinin eyni zamanda əmək bazarında rəqabət qabiliyyətli peşə bacarıqlarına yiyələnmələri üçün də məqsədyönlü işlərin aparılmasının, bununla bağlı proqramın hazırlanmasının vacibliyini diqqətə çatdırıb.

S.Babayev vurğulayıb ki, DOST xidmətləri, eyni zamanda, vətəndaşların qəbulu və müraciətlərinə baxılmasında da bir nümunə formalaşdırıb. DOST mərkəzinə müraciət edən vətəndaşlara burada müraciətlərinə uyğun xidmətlərin operativliyi də artır - bu xidmətlərin vətəndaşa tam çatdırılma müddəti 15 dəqiqəyə enib.

Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda və fondun Xüsusi Şərtlərlə Təyinat İdarəsində də müasir tələblərə uyğun qəbul mərkəzləri fəaliyyət göstərir. Nazirliyin qəbul otağında da vətəndaşların qəbulu prosesinin müasir tələblərə uyğun səviyyədə, vətəndaşların rahatlığına cavab verən tərzdə qurulması işləri aparılır və yaxın vaxtlarda bu işlər yekunlaşacaq.

Nazirliyin Aparat rəhbərinin müavini Bəxtiyar Əzizov vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində görülən işlər, müraciətlərdə əksini tapan məsələlərlə bağlı aparılmış təhlillərin nəticələri barədə məlumat verib.

Xidmət sahələrində şəffaflığın təminatına, məmur-vətəndaş təmaslarının aradan qalxmasına yönələn işlərin, xidmətlərin e-texnologiyaların tətbiqi şəraitində proaktiv qurulması üçün atılan addımların, o cümlədən pensiya təyinatının avtomatlaşdırılmasının, artıq müavinətlər sistemində də analoji təcrübənin tətbiqinə başlanmasının və s. xüsusi önəmi və vətəndaşlar tərəfindən rəğbətlə qarşılandığı, vətəndaşların şikayət məzmunlu müraciətlərinin də əhəmiyyətli dərəcədə azaldığı qeyd edilib.

İclasda vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində görülən işlər, həmçinin vətəndaşların müraciətlərində əksini tapan məsələlərlə bağlı aparılan təhlillərin nəticələri də ətraflı müzakirə olunmaqla, aidiyyəti üzrə tapşırıqlar verilib.

# Qaxda bir gündə müxtəlif növ 19 min ağac əkiləcək

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə respublikamızda bir gündə 650 min ağacın əkilməsi təşəbbüsü Qax rayonu sakinləri tərəfindən də böyük razılıqla qarşılanıb. Şairin irsinin daha geniş təbliği, eyni zamanda, yaşıllıqların artırılması və ekoloji mühitin sağlamlaşdırılması məqsədi daşıyan bu xeyirxah aksiyanın yüksək səviyyədə keçirilməsini təmin etmək üçün rayonda geniş hazırlıq işləri görülür. Genişmiqyaslı kampaniya çərçivəsində rayon ərazisində bir gündə 19 min ağac tinginin əkilməsi nəzərdə tutulur.

Hazırlıq işlərinin gedişi barədə məlumat verən Qax Rayon İcra Hakimiyyəti Aparatının sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Elşən Rəcəbov AZƏRTAC-a deyib: "Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu nəcib təşəbbüsü mütəfəkkir şairin 650 illik yubileyinə və xatirəsinin əbədiləşdirilməsinə çox böyük töhfə olacaq. Nəsiminin xatirəsinə əkiləcək ağaclar, salınacaq bağlar ölkəmizdə ekoloji mühitin daha da sağlamlaşdırılmasına müsbət təsir göstərəcək. Bu xeyirxah təşəbbüslə əlaqədar respublikanın hər yerində olduğu kimi, Qax rayonunda da geniş hazırlıq işləri aparılır. Ağacların əkiləcəyi ərazilər müəyyən edilib. Hazırda çalalar qazılır, sahələrə üzvi gübrə daşınır. Rayonumuzun sakinləri bu aksiyanın uğurla həyata keçməsi üçün öz səylərini əsirgəməyəcəklər".

Bu təşəbbüs Qax şəhəri də daxil olmaqla, rayonun 17 yaşayış məntəqəsini əhatə edəcək. Hazırda rayonun Ləkit kəndində də geniş hazırlıq işləri görülür. Bölgüyə əsasən, kəndin ərazisində 1375 ağac tinginin əkilməsi nəzərdə tutulur.

Rayon icra hakimiyyəti başçısının Ləkit kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Təhminə Ağayeva ilə elə ağacların əkiləcəyi ərazidə görüşürük. Hazırda burada da qızğın iş gedir, texnikanın və kənd sakinlərinin köməyi ilə sahə hamarlanır, çalalar qazılır, su arxları çəkilir.

Genişmiqyaslı kampaniyanın əhəmiyyətini yüksək qiymətləndirən icra nümayəndəsi AZƏRTAC-a müsahibəsində deyib: "Birinci vitse-prezident Mehriban Əliyevanın bu təşəbbüsü ləkitlilər tərəfindən də böyük rəğbətlə qarşılanıb. Bu kampaniyanın keçirilməsi dahi Nəsiminin adının, xatirəsinin əbədiləşdirilməsi ilə yanaşı, ekologiyanın sağlamlaşdırılması baxımından da çox əhəmiyyətlidir. Ona görə də bütün kənd əhalisi noyabrda keçirilməsi nəzərdə tutulan bu təşəbbüsdə fəal iştirak edəcək, ətraf mühitin sağlamlaşdırılmasına öz töhfəsini verəcək".

Rayon ərazisində əsasən bölgə üçün xarakterik olan cökə, akasiya, sərv, xan çinar, qoz, şabalıd, sarağan, ağcaqayın, tut və digər növ ağac tinglərinin əkilməsi nəzərdə tutulur.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Oktyabrın 25-də Mədəniyyət naziri Əbülfəs Qarayev Ucar rayonunda Ucar və Zərdabdan olan vətəndaşlarla görüşüb.

Nazir Əbülfəs Qarayevin Ucardakı Heydər Əliyev Mərkəzində keçirdiyi qəbulda sakinlər tərəfindən Ucar Rayon Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasının yenilənməsi, rayon Mədəniyyət mərkəzinin və Ucar Uşaq İncəsənət Məktəbinin əsaslı təmir olunması, tədris ocağına musiqi alətlərinin verilməsi ilə bağlı müraciətlər səsləndirilib.

Qəbulda həmçinin Zərdab Rayon Tarix-Diyarşünaslıq Muzeyində əsaslı təmir və tərtibat işlərinin aparılması, mədəniyyət müəssisələrinin internet xətlərinin yenilənməsi, Zərdab Rayon Mədəniyyət Mərkəzinin filmlərin nümayişi üçün avadanlıqlarla təmin olunması, kitabxanalara yeni avadanlıqların və yeni ədəbiyyatların verilməsi, habelə fəxri adın verilməsi, işlə təmin olunma barədə müraciətlər olub.

Mədəniyyət nazirinin müavini Rafiq Bayramov Ağdaş rayon Heydər Əliyev Mərkəzində Ağdaş və Göyçay rayonlarından olan vətəndaşları qəbul edib.

Nazir müavini Rafiq Bayramovun vətəndaşlarla görüşündə Ağdaş və Göyçay sakinləri tərəfindən rayon kitabxanaları ilə respublika kitabxanaları arasında internet şəbəkəsinin yaradılması, Ağdaş Rayon Tarix-Diyarşünaslıq Muzeyində tərtibat işlərinin tamamlanması, muzey zalının dam örtüyünün dəyişdirilməsi, mədəniyyət müəssisələrinin əlamətdar günlərə həsr olunmuş videomateriallarla təmin edilməsi, görkəmli sənət adamları ilə görüşlərin təşkilinə köməklik göstərilməsi xahiş olunub.

* * *

Kənd Təsərrüfatı naziri İnam Kərimov oktyabrın 25-də Oğuz Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Oğuz, Qəbələ və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 30 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Oktyabrın 25-də Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyev Qax Dövlət Aqrar İnkişaf Mərkəzinin binasında Qax, Şəki, Zaqatala və Balakən rayonlarından olan vətəndaşları qəbul edib. Qaxda keçirilən vətəndaş qəbulunda 19 vətəndaşın müraciətinə baxılıb, məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

* * *

Oktyabrın 25-də Dövlət Gömrük Komitəsinin (DGK) rəhbərliyi Yevlax, Ağdaş, Bərdə rayonlarının və Mingəçevir şəhərinin sakinlərini, eləcə də bu bölgələrdə məskunlaşan məcburi köçkünləri qəbul edib.

DGK-nın Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən bildirilib ki, komitənin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Yevlax şəhərində Yevlax və Ağdaş rayonlarından olan vətəndaşlarla görüşüb.

Qəbulda vətəndaşların yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Müraciətlər əsasən idxal-ixrac əməliyyatları zamanı rəsmiləşdirmə və digər gömrük məsələləri ilə bağlı olub.

Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov Bərdə, komitə sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev isə Mingəçevir şəhərində vətəndaşları qəbul edib.

Qəbullar zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib.

* * *

Oktyabrın 25-də Ali Məhkəmənin sədri Ramiz Rzayev Mingəçevir Şəhər Məhkəməsinin inzibati binasında vətəndaşları qəbul edib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerində öz müsbət həllini tapıb. Araşdırılması tələb olunan müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq həlli ilə əlaqədar Ali Məhkəmə Aparatının qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

* * *

Oktyabrın 25-də Təhsil nazirinin müavini Firudin Qurbanov İmişli şəhərindəki Heydər Əliyev Mərkəzində İmişli və Beyləqan rayonlarının sakinlərini qəbul edib.

Qəbulda İmişli və Beyləqan rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir müavini vətəndaşların müraciət, şikayət və təkliflərini dinləyərək onların aradan qaldırılması, hər bir müraciətin operativ şəkildə araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı tapşırıqlar verib. Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, həmçinin digər məsələlərlə bağlı müraciət ediblər.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov oktyabrın 25-də Lerikdə vətəndaşlarla görüşüb.

Lerik Rayon Mədəniyyət Mərkəzində keçirilən qəbulda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Qəbula gələn vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində konkret tapşırıqlar verilib.

# Heydər Əliyev Fondu Qazaxda daha bir məktəb inşa etdirir



Azərbaycan təhsilinin inkişafında əvəzsiz xidmətlər göstərən Heydər Əliyev Fondu 3 aya yaxındır ki, Qazax rayonunun Kosalar kəndində daha bir məktəbin tikintisinə başlamışdır.

Xalq yazıçısı İsmayıl Şıxlının adını daşıyan məktəb 1176 şagirdlikdir. Layihəyə əsasən təhsil ocağında müasir standartlara cavab verən şərait nəzərdə tutulmuşdur. İş icraçısı Əhməd Rəhimov görülən işlər barədə məlumat verərək dedi ki, artıq əsas binanın və keçidlərin dam örtüyünün vurulması başa çatmışdır. Üçmərtəbəli binanın arakəsmələri hörülmüş, suvaq işləri yekunlaşmış, istilik sistemi, elektrik xətləri çəkilmiş, santexnika işləri görülmüşdür. Tədris ocağının qapı və pəncərələri də qoyulmuşdur. Hazırda divarlarda astar və üzlük vurulması işləri aparılır. Yaxın günlərdə alçipanın vurulmasına başlanacaq.

Bunlardan əlavə, məktəbin akt zalı və yeməkxanası üçün nəzərdə tutulan binalarda söküntü və suvaq işləri başa çatdırılmış, ətrafına hasar çəkilmişdir. İdman zalında isə suvaq işləri yekunlaşmaq üzrədir.

Məktəbin təhlükəsizliyini təmin etmək məqsədilə binanın arxa hissəsində 160 kubmetrlik 2 yanğından mühafizə və 100 kubmetrlik içməli su hovuzları, nasosxana, qazanxana inşa edilmişdir. Həmçinin kənd sakinlərinin, eləcə də idmançıların istəyi nəzərə alınaraq məktəbin ərazisində əlavə güləş məktəbinin inşasına start verilmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***






# Neftçi çörəyi







Neft Daşları bənzərsiz şəhərdir. Təkcə ona görə yox ki, polad dirəklər üstündə qərar tutub, dənizin ortasında estakadalarla sağa-sola doğru şaxələnir. Həm də ona görə ki, bu şəhərdəki binalarda ailələr üçün mənzillər deyil, işçilər üçün yaşayış otaqları yerləşir.

Neft Daşlarında məktəb də, uşaq bağçası da yoxdur. Çünki neftçilər buraya əmək növbələrinə gəlirlər. Əsasən bir həftəlik iş günləri bitəndən sonra isə sahilə, ev-eşiklərinə dönürlər. Yeddi gün istirahət edib yenidən Xəzərin qoynuna üz tuturlar. Təkcə bu faktın özü çətin neftçi peşəsinin göstəricilərindən biridir.

Hər ayın 15 gününü açıq dənizin qoynunda yaşamaq, ekstremal şəraitdə işləmək asan məsələ deyil. Odur ki, neftçinin növbə çəkdiyi dövrdə necə qidalanması, istirahət saatlarını necə keçirməsi vacib şərtdir. Təsadüfi deyil ki, bu sahəyə diqqət getdikcə daha da artırılır. Xüsusilə son illərdə neftçinin məişətinin, istirahətinin, müalicəsinin yüksək səviyyədə olması üçün çoxsaylı tədbirlər həyata keçirilib.

Neft Daşlarına bələd olmayanlar bəlkə də düşünə bilərlər ki, burada çalışanlara çörək sahildən gətirilir və yolda boyatlaşır. Yaxud onlar quru yeməklərlə, soyuq qəlyanaltılarla dolanırlar. Əsla belə deyil!

Neft Daşlarının özünün çörək zavodu var! Burada bişirilən birinci növ (ağ) çörək və kəpəkli kərpic çörək öz dadına və keyfiyyətinə görə paytaxtda, yaxud hansısa bölgədə bişirilən çörəklərdən geri qalmır.

Zavodun 8 işçisi var. Yarım aydan bir dəyişən növbədə 4 nəfər olurlar. Onların da ikisi gecə, ikisi gündüz işləyir. Beləliklə, dəniz şəhəri heç vaxt çörəksiz qalmır.

"Xəzər İaşə" MMC-nin Neft Daşlarında yerləşən 1 nömrəli yeməkxanasının işçisi Şakir Vəliyev deyir:

- Zavodda bir sutka ərzində 6 kisə unun çörəyi bişirilir. İşimizi dəqiq qururuq. Həmişə ehtiyatda un saxlayır və onu dəniz havasının rütubətindən qoruyuruq.

"Neft Daşları" NQÇİ-nin bir çox işçisi stasionar dəniz özüllərində çalışır. Söhbətdən məlum olur ki, onlara çörək gəmi ilə, vertolyot meydançası olan özüllərə isə hava yolu ilə göndərilir. Bəzən Xəzərdə elə tufan qopur ki... Ona görə özüllərə də hər ehtimala qarşı un verilir ki, ehtiyat saxlasınlar.

Dəmə, 2585, 602, 620 və 1887 nömrəli özüllərin hər birinin öz aşpazı da var. Yeri gəlmişkən, stasionar dəniz özüllərinin hamısında soyuducu, elektrik sobası və elektrik samovarı, mətbəxdə istifadə olunan digər əşyalar var. Odur ki, neftçilər təzə yeməkdən, isti çaydan korluq çəkmirlər.

Neft Daşlarının özündə isə geniş, təmiz və işıqlı yeməkxana fəaliyyət göstərir. Neftçilər burada məmnuniyyətlə həm səhər yeməyi yeyir, həm də nahar və şam edirlər. Yeni yeməklərin dadı-tamı evdə bişirilənlərdən heç də fərqlənmir. Neftçilərin halal süfrəsində onlarla birlikdə çörək kəsərkən bunun əyani şahidi olduq.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Bu il Gədəbəydə kartof boldur





Könül oxşayan sərin yaylaqları, zəngin meşələri, təkrarolunmaz gözəlliyə malik gölləri, min bir dərdin dərmanı olan termal suları ilə fərqlənən Gədəbəy rayonunda bu il bol kartof yetişdirilmişdir. Artıq neçə vaxtdır ki, təsərrüfat sahibləri böyük zəhmət hesabına yetişdirdikləri məhsulu yığmaq üçün yorulmaq bilmədən çalışırlar. Bu il məhsuldarlığın yüksək olması da fermerləri çox sevindirir. Onların bəziləri məhsullarını yerində satsalar da, əksəri çeşidləyib anbarlara yığır, qış aylarında daha sərfəli qiymətə satmağa üstünlük verir.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin rəisi Asəf Nağıyev söhbət zamanı dedi ki, bu il gözlədiyindən də çox məhsul yetişdirilib. Bunun əsas səbəbi fermerlərin dövlət dəstəyindən yararlanmalarıdır. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalçılarına güzəştli şərtlərlə mineral gübrələrin verilməsi və motor yağlarına görə vəsait ödənilməsi onlarda stimul yaratmışdır. Təkcə bu il rayon üzrə ümumilikdə təsərrüfat sahiblərinə güzəştli qiymətlərlə 354,5 ton mineral gübrə satılıb.

Öyrəndik ki, bu il rayonda 10 min 371 hektarda kartof əkilib. Kartofçuluğun inkişafına marağın artması nəticəsində əkin sahələri xeyli genişləndirilib. İndi Gədəbəydə elə kənd yoxdur ki, kartof əkilməsin. Ən çox kartof Slavyanka, Zəhmət, Söyüdlü, Saratovka, Qızıltorpaq kəndlərində əkilir. Qızıltorpaq kəndinin sakini Əli İsmayılov hər il 22 hektarda məhsul yetişdirir.

Kartofçuluqda zəngin təcrübə toplayan fermer yüksək məhsuldarlığa nail olur. Onun builki məhsulu da nəzərdə tutulandan xeyli çoxdur. Belə ki, təsərrüfat sahibi 700 ton kartof istehsal edib. Hər hektardan orta hesabla 35 ton kartof götürən fermer istehsal etdiyi məhsulun bir hissəsini toxum kimi satır. Keçən il 290 ton toxumluq kartof satan Əli İsmayılov bu il bu rəqəmin 400 ton olacağını söylədi. Kartofu saxlamaq üçün təsərrüfatda hər cür şərait var. Burada inşa edilən 500 tonluq anbar fermerə imkan verir ki, həm toxumu, həm də satış üçün istehsal edilən kartofu normalara uyğun saxlasın. Söhbət zamanı öyrəndik ki, təsərrüfat texnika ilə də tam təmin olunub. Odur ki, istər şum, istər əkin, istər becərmə və istərsə də kartofun çıxarılması texnikanın köməyi ilə həyata keçirilir ki, bu da məhsulun maya dəyərinə müsbət təsir göstərir. Fermer mövsümi işlərə 40 nəfər cəlb edir.

Zəhmət kəndinin sakini Eynur Hüseynov da bu il ona məxsus əkin sahələrində bol məhsul yetişdirib. 4 hektar kartof əkən fermer hər hektardan 22 ton məhsul götürüb.

7 hektar sahədə kartof yetişdirən Novosaratovka kəndinin sakini Ramiz İbrahimov da bu il məhsuldarlıqdan olduqca razıdır. Hər hektardan 28 ton kartof götürən fermer 200 ton məhsul istehsal edib. O, builki məhsulun 150 tonunu toxum kimi satmağı nəzərdə tutub. Kartofu saxlamaq üçün onun 200 tonluq anbarı var. Kartof istehsalında işlədilən bütün texnika ilə təmin olunan təsərrüfat sahibi gələn il əkin sahələrini bir qədər də genişləndirməyi qərara alıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Banklar yenə "va-bank" gedir

## Prezident İlham ƏLİYEV: "Əgər bu davam edərsə, yenə də bir neçə ildən sonra xoşagəlməz problemlərlə üzləşə bilərik"

Bankları iqtisadiyyatın lokomotivi də adlandırırlar və bu bənzətmə qətiyyən təsadüfi deyil. Çünki banklar həmişə mənsub olduqları ölkənin inkişafında çox mühüm funksiya yerinə yetiriblər, hətta o dərəcədə ki, onlar iqtisadi sistemin vacib və ayrılmaz hissəsi hesab ediliblər. İndi də belədir. Bu gün də banklar təkcə qoyulan depozitləri (əmanətləri) və aldıqları vəsaitləri ehtiyacı olanlara kredit kimi paylamaqla məşğul deyillər. Onlar, həmçinin pul yaratmaqla iqtisadiyyatı, daha doğrusu, iqtisadi fəaliyyətləri hərəkətə gətirirlər. Bu baxımdan banklar öz xeyrini güdən kommersiya təşkilatından daha çox, ölkənin sosial-iqtisadi inkişafını təmin etməkdə dövlətin yanında olan, əlindən tutan maliyyə qurumudur.

Bütün bunlar normalda belədir və ya belə olmalıdır. Əks halda inkişaf etmiş ölkələrin təcrübəsi və həmin təcrübənin nəticəsi olan mövcud durumları araşdırılarkən onların sosial-iqtisadi cəhətdən qazandıqları uğurlarda bank sisteminin əvəzsiz rolu dönə-dönə vurğulanaraq etiraf edilməzdi.

Azərbaycanın dövlət müstəqilliyi kimi, müstəqil bank sektorunun da yaşı heç 30 deyil. Ötən illər ərzində bu sektorda heç nə edilməyib iddiasından uzağıq. Bütün hallarda keçən dövrdə dövlətçilik sahəsində görülən işlərlə müqayisəyə gələ bilən işlər görülməsə də, ölkənin müstəqil bank sistemi formalaşıb və o, məlum məqamları çıxmaqla pul-kredit sahəsində həyata keçirilən tədbirlər sayəsində dayanıqlı iqtisadi inkişafın təminatında müəyyən rol oynayıb.

Amma bunlar azdır, həm də təkcə az yox, eyni zamanda ali rəhbərliyi qane edəcək səviyyədə deyil.



Biz son illər ölkənin sosial-iqtisadi sahədəki vəziyyətinə aid keçirilən elə bir müşavirə, yaxud iclas xatırlamırıq ki, Prezident İlham Əliyev kommersiya banklarının ünvanına irad bildirməsin, tövsiyələr səsləndirməsin. Əsasən də real sektoru kreditləşdirməyə meyilli olmadıqları, üstünlüyü istehlak kreditlərinə verdikləri üçün.

"...bank sektoru bizdə iqtisadiyyatın artımına, iqtisadiyyatın real sektorunun artımına o qədər də kömək göstərmir və son illər yenə də istehlak kreditlərinin həcmi artır. Mən əvvəlki illərdə bunu demişəm ki, bizim portfelimizdə istehlak kreditləri üstünlük təşkil edir və bank sektorunun böhranının səbəblərindən biri də məhz o idi. İndi də mənə məlumat verilir ki, yenə də bu meyillər artır, iqtisadiyyatın real sektoruna yox, yenə də istehlaka, yəni istehlak mallarının alınmasına kreditlər verilir. Əgər bu davam edərsə, yenə də bir neçə ildən sonra xoşagəlməz problemlərlə üzləşə bilərik". Bu fikirlər dövlət başçısı tərəfindən oktyabrın 15-də keçirilən iqtisadi müşavirədə səslənmişdir. Göründüyü kimi, Prezident özü də qeyd edir ki, sözügedən problem ən yüksək səviyyədə dəfələrlə qaldırılsa da, banklar özləri üçün sərfəli, ölkə iqtisadiyyatı üçün səmərəsiz, dövlət büdcəsi üçün isə təhlükəli fəaliyyətlərindən - vəsaitlərini real sektor əvəzinə istehlak kreditlərinə yönəltmək mərəzlərindən əl çəkmirlər.

Sırf girəvəçi mövqeyindən yanaşanda niyə əl çəkməlidirlər ki?! 10-12 faizə qoyulan depozitləri, ondan da aşağı faizlə Mərkəzi Bankdan və xarici mənbələrdən aldıqları vəsaitləri əhaliyə 25-30 faizə verıb "babat" qazanmaqdan könüllü əl çəkmək heç kimə asan gəlməsin. Bu yolu tutmuş bankların nə veclərinə ki, Azərbaycan kimi obyektiv səbəblər üzündən gəlirlərinin çox hissəsini mədən sənayesindən (neft-qazdan) qazanan ölkədə qeyri-neft sektorunu inkişaf etdirmək həyat qədər vacib məsələdir və bu işdə də onlar bütün imkanları ilə dövlətə kömək, hökumətə dəstək olmalıdırlar.

Amma haradadır bizim dövlət və hökumətimizdə o bəxt. Sanki çörəyinin duzu yoxdur - hansı sahəyə bel bağlayıb şərait yaradır ki, dirçəlib ölkənin müəyyən bir probleminin həllində onun əlindən tutsun, yanında olsun - edilən yardımlardan, verilən dəstəkdən özləri üçün istifadə etməyə başlayırlar.

İndi budur, dövlət bankların köhnə "zibil"lərini təmizləyib qurtarmamış yenisi ilə üzləşmək təhlükəsi həddinə çatıb. Əks halda Prezident son iqtisadi müşavirədə problemi bu ciddiliklə qoymazdı. Dövlət başçısı "əgər bu davam edərsə, yenə də bir neçə ildən sonra xoşagəlməz problemlərlə üzləşə bilərik" həyəcanını boş yerdən bəyan etməyib. Bu gün heç kim inkar edə bilməz (və ya etməz) ki, istər manatın 2015-2016-cı illərdəki devalvasiyalarında, istərsə də onun nəticəsi kimi ölkə əhalisinin çox böyük təbəqəsinin borc girovuna çevrilməsində ən böyük günah və məsuliyyət sahibi banklar olmuşdur. Məhz bankların və bankirlərin yalnız korporativ maraqlarına xidmət edən insafsız (daha doğrusu, soyğunçu) kredit siyasəti sonda dövləti milyard manatlarla ziyana saldı. Bu yerdə tək Beynəlxalq Bankda baş verənləri xatırlatmaq kifayətdir. Prezident məhz bunu əsas götürüb indidən həyəcan təbili çalır, müvafiq qurumların yığışıb birgə tədbir görmələrini, əsas diqqəti nəyə yönəltməli olduqlarını tapşırır: "Ona görə bütün bu məsələləri gərək ümumiləşdirib, təhlil edib və bir qərara gələsiniz ki, bütün alətlər - bank sektoru, Sahibkarlığın İnkişaf Fondu, dövlət investisiya xərcləri bir məqsədi güdməlidir - məşğulluğun artırılması və qeyri-neft sektorunun artımı".

Dövlət başçısının əsas diqqəti bir-biri ilə sıx bağlı olan qeyri-neft sektorunun inkişafı və məşğulluğun artırılmasına yönəltməsi də təsadüfi deyil. Çünki nə qədər gec deyil bankların üzünü yüksək faizli istehlak krediti ənənəsindən real sektoru maliyyələşdirmək siyasətinə çevirmək lazımdır. Əks halda nə ola biləcəyinin altını təxminən 4 ildir ki, həm əhali çəkir, həm də real sektorun timsalında dövlət. Çünki bu anormal fəaliyyət zamanı qazanan tək bankların özləridir, baxmayaraq ki, onlar bunu heç də həvəslə etiraf etmirlər. Amma etməməklə deyil ki... Əgər sıradan bir bankın texniki işçisinin leqal əməkhaqqı elmi-tədqiqat institutunda, yaxud universitetdə professor vəzifəsi tutan elmlər doktorunkundan çoxdursa, bunu etiraf etməyə ehtiyacmı var?! Hələ idarə heyətlərinin, müşahidə şuralarının sədrlərinin ən azından beşrəqəmli maaşlarını yazmırıq. Bunlar müəllimin, həkimin, mühəndisin, tələbənin və digər aztəminatlı təbəqələrin özlərinin və balalarının ağzından, əynindən, təhsilindən kəsib ödədikləri yüksək faizlər hesabına mümkün olmurmu?!

Özgənin pulunu saymaq məqbul qəbul edilməsə də, bankların qazanclarını ötəri də olsa hesablamağa hər kəsin haqqı çatır. Çünki həmin qazancda əhalinin həm faiz kimi ödədiyi, həm də depozit kimi qoyduğu vəsaitin xüsusi çəkisi yetərincə yüksəkdir və o üzdən istəməzdik ki, bank işçilərinin əməkhaqları barədə qeydlərimiz xatırlatdığımız pis vərdiş kimi yox, reallığın ifadəsi olaraq qəbul edilsin. O reallığın ki, ədalətdən xəbər verdiyini iddia etməyin özü ədalətsizlik olardı.

Buna ədalətsizlikdən savayı nə ad vermək olar ki, bir tərəfdə ölkədə əsasən qeyri-neft sektorunda çalışan iş adamları dövlət başçısının çağırışlarına səs verərək fəaliyyətlərini genişləndirmək üçün vəsait, bir tərəfdə də həmin vəsaitə malik banklar onu istehlak krediti adı, özü də yüksək faizlə verməkdən ötrü müştəri axtarışındadırlar. Sahibkarlar deyirlər ki, filialları bütün rayonlara səpələnmiş heç bir bankdan bu gün normal faizlə kredit almaq mümkün deyil! Həm yüksək faiz, həm də real olmayan girov tələbi iş adamlarının, fermerlərin qarşısına elə sədd çəkib ki, onu heç mənəm deyən sahibkar dəf etmək imkanında deyil. Əvəzində isə əvvəlki dərslərdən nəticə çıxarmayıb növbəti dəfə istehlak krediti portfellərinin ağızlarını açıblar. Onların bu "səxavət"indən məcbur olub yararlanmaq istəyənlərsə faiz tələsinə düşürlər. Banklar yüksək faizdən əlavə, kreditin qaytarılması sxemini elə qururlar ki, müştəri uzun müddət onun altından çıxa bilmir, nə ödəyirsə, çox hissəsi faizə hesablanır. Odur ki, gözlənilməz bir hadisə baş verdikdə o, bank qarşısında öhdəliyinə demək olar tam əməl etməmiş vəziyyətdə qalır. Liberal bazar iqtisadiyyatında isə belə gözlənilməz hadisələrdən heç kim tam sığortalanmayıb. Elə yəqin həm də bu üzdən dövlətin gördüyü bütün tədbirlərə baxmayaraq, bankların əsasən problemli istehlak kreditlərinin məbləği yenidən milyard manatı üstələyib. Bu o vaxt baş verib ki, təkcə bu ilin 9 ayı üzrə əsas kapitala yönəldilən 10,1 milyard manatlıqdan çox vəsaitin tərkibində bank kreditlərinin xüsusi çəkisi cəmi 7,3 faiz olub.

Mütəxəssislər də bankların kredit faizlərinin yüksək olmasını normal hesab etmirlər. Onların qənaətinə görə, yüksək kredit faizləri, qeyd etdiyimiz kimi, xüsusən kiçik və orta sahibkarlığın inkişafı istiqamətində hökumətin müəyyən etdiyi strategiyaya mənfi təsir göstərir. Ölkənin bank sektorunda belə vəziyyətin yaranma səbəbinə gəldikdə isə, ekspertlər bunu daha asan yolla qazanmaq istəyindən savayı, həm də real sektorda risklərin böyük olması ilə izah edirlər. Odur ki, banklar bir hüquqi şəxsə, məsələn, 100 min manat biznes krediti verməkdənsə, 100 fiziki şəxsə 1000 manat istehlak krediti verməyi daha çox gəlirli və daha az riskli sayır. Götürdükdə, həqiqətdə də belədir. Belədir, amma normal deyil. Çünki bu halda bank bankçılıq yox, sələmçilik fəaliyyəti göstərmiş olur.

Yeri gəlmişkən onu qeyd edək ki, ölkədə sahibkarlar təbəqəsi yeni formalaşdığından (hər halda 20-25 il bazar iqtisadiyyatının aparıcı təbəqəsinin formalaşması üçün elə də uzun zaman deyil) ölkədə bankların meyil göstərə biləcəyi uğurlu və deməli, həm də azriskli biznes layihələrinin sayı azdır. Odur ki, bu reallığı bankların real sektora üz çevirmək istəməmələrinin digər səbəbi kimi qəbul etmək olar. Amma bu da hələ hamısı deyil. Ekspertlər bildirirlər ki, devalvasiyadan sonra bankların maliyyə mənbələrinə çıxış imkanları müəyyən dərəcədə zəifləyib. Onlar bunun müxtəlif səbəbləri sırasında götürülən vəsaitlərin yüksək faizlər üzündən yerləşdirilə bilinməməsini önə çəkirlər.

Göründüyü kimi, burada qapalı bir halqa yaranıb - banklar yüksək faiz səbəbindən kredit portfellərindəki vəsaitlərini real sektora yerləşdirə bilmir və nəticədə maliyyə mənbələrinə çıxışları zəifləyir, yəni, istədikləri qədər vəsaitə əlləri çatmır ki, hərəkət edib gəlir götürsünlər. Bəs, belə halda necə qazanmalı? Təbii ki, olan vəsaiti yüksək faizlə əhaliyə istehlak krediti verməklə... Bu da qapalı dairədən qurtulmağın yolu. Və yeri gəlmişkən, bu işdə banklar (sanki) sövdələşərək əməlli-başlı dominantlıq göstərib kredit bazarına demək olar eyni faiz dərəcələri diktə edirlər. Aralarında heç bir rəqabət olmamış kimi...

Rəqabət demişkən. Mütəxəssislər yüksək faizlərdən qurtulmağın müxtəlif yollarını təklif edirlər. Onlardan biri alternativ maliyyə institutlarının inkişaf etdirilməsi, ümumiyyətlə, maliyyə bazarının liberallaşdırılmasıdır. Ağlabatan və təbii ki, maliyyə bazarında rəqabətin güclənməsinə xidmət edən təkliflərdir. Üstəlik, bu və digər səmərəli, sınaqdan çıxmış təklifləri reallaşdırmaq, ümumiyyətlə, ölkənin bank sektorunda dövlət başçısının tənqid etdiyi, irad bildirdiyi vəziyyətə son qoymaq üçün ən yüksək səviyyədə siyasi iradə ortaya qoyulub. Qalır ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi naminə bu iradədən çıxış edərək tədbirlər görmək.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

### Büdcə Məlumat İdarəetmə Sisteminin (BMİS) yaradılması ilə bağlı proqram təminatının satın alınması üçün

### *açıq tender elan edir*

**Tender** *etender.gov.az* **saytında Portal vasitəsilə keçirilir.**

**Tenderi keçirən: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**

İştirak haqqı **4000 (dörd min) manat** məbləğində müəyyən edilmişdir.

Tenderin əsas şərtlər toplusu tenderdə iştirak edən iddiaçılara iştirak haqqı aşağıda göstərilən hesaba ödənildikdən sonra Portal vasitəsilə təqdim ediləcəkdir:

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**A1. Benefisiar (alan) bank**
**Adı Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**B2. Alan təşkilat: Azərbaycan Respublikası Maliyyə Nazirliyi**
**Hesab № AZ83CTRE00000000000002108571**
**Büdcə səviyyə kodu - 7**
**Büdcə təsnifat kodu - 142340**
**VÖEN: 1400108191**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün Portal vasitəsilə müraciət;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (notarial qaydada təsdiq edilmiş), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ixtisas göstəricilərinə dair Portalın müvafiq bölmələrində tələb olunan sənədlər;*
- *iddiaçının avtomatlaşdırılmış idarəetmə sisteminin proqram təminatının tətbiqi və onun inteqrasiya edilməsi üzrə xidmətlərin göstərilməsi istiqamətində, o cümlədən Azərbaycan Respublikasında təcrübəsini təsdiq edən sənədlər;*
- *əsas şərtlər toplusu üzrə Portalın ixtisas göstəriciləri bölümündə tələb olunan digər sənədlər;*
- *Portalın texniki meyarlar bölümündə təyin edilmiş meyarların cavablarını əks etdirən və onları təsdiq edən sənədlər;*
- *iddiaçıların müvafiq mallar üzrə (əgər proqramın yaranması zamanı ehtiyac olarsa) mənşə və uyğunluq sertifikatları:*
- *yekun tender təklifi (texniki və qiymət təklifi daxil olmaqla tender təklifi qiymətinin 1 faizi həcmində təklifin təminatı (bank zəmanəti) ilə birlikdə).*

Təqdim edilən sənədlər əsas şərtlər toplusuna əlavə edilmiş formalara uyğun olmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **17 noyabr 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **26 noyabr 2019-cu il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **27 noyabr 2019-cu il saat 11:00-da** açılacaqdır.

Tenderlə əlaqədar suallar və sorğular, əsas şərtlər toplusunun izahı üzrə (sual-cavab bölümündə) əlaqələndirici şəxslə Portal vasitəsilə əlaqə saxlamaq olar.

***Tender komissiyası***

---

## "Azercell" "İlin innovasiya tədbiri" nominasiyasında qalib gəlib

### "Azercell Telekom" "InnoWeek - İnnovasiya həftəsi" çərçivəsində keçirilən "Eurasia Innovation Day" və "Innovation Awards Gala" tədbirlərində iştirak edib

Rəqəmsal aləmin ən son yeniliklərini abunəçiləri üçün əlçatan etməyi hədəfləyən ölkənin lider mobil operatoru "Azercell Telekom"un uğurlu fəaliyyəti diqqət mərkəzindədir.



Bu günlərdə Heydər Əliyev Mərkəzində "InnoWeek - İnnovasiya həftəsi" çərçivəsində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və "Huawei" şirkətinin birgə təşkilatçılığı ilə "Eurasia Innovation Day" və "Innovation Awards Gala" mükafatlandırma mərasimi keçirilib. Tədbir zamanı "İlin innovasiya ekosistemi təmsilçisi", "İlin innovasiya tədbiri", "İlin innovasiya layihəsi", "İlin influenseri" və "İlin startapı" nominasiyaları üzrə qaliblərin adları açıqlanıb. Münsiflər heyətinin səsverməsinə əsasən "Azercell"in yeni brend kimliyinin təqdimatı "İlin innovasiya tədbiri" nominasiyası üzrə qalib seçilərək, "Azərbaycan İnnovasiya Mükafatı"na layiq görülüb. Xatırladaq ki, şirkətin yeni brend kimliyinin təqdimatı cari ilin iyun ayının 21-i Heydər Əliyev Mərkəzində dövlət və biznes strukturlarının rəsmilərinin, ictimai xadimlərin və mətbuat nümayəndələrinin iştirakı ilə baş tutub. Tədbir zamanı qonaqlara Azərbaycanda ilk dəfə olaraq 360 dərəcəlik 3D proyeksiyası nümayiş etdirilib. Mərkəzin parkında təşkil edilən sərbəst girişli konsert zamanı isə ölkədə ilk dəfə olaraq, 300-ə yaxın dron səmada Azərbaycan bayrağı və xəritəsinin, "Azercell"in köhnə və yeni loqolarının təsvirini yaradaraq, izləyicilərə möhtəşəm şou sərgiləyib.

Məlumat üçün bildirək ki, dialoq platforması rolunu oynayan "Eurasia Innovation Day" tədbirinə siyasətçilər, özəl sektor nümayəndələri, elm xadimləri və media nümayəndələri qatılıb. Tədbir çərçivəsində texnologiyalar və innovasiyalar sahəsində ən son yeniliklərin müzakirə olunduğu 3 panel təşkil edilib. "Rəqəmsal əlaqə" adlı ilk paneldə mövzu ətrafında maraqlı məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb. Paneldə "Azercell Telekom" MMC-nin İstehlakçı Seqment Biznes Strukturunun rəhbəri Krasimir Genov da çıxış edib. Krasimir Genov şirkətin cari ilin iyun ayından etibarən fəaliyyətinin yeni dövrünə qədəm qoyduğunu və abunəçilərinin qarşısına ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operator olaraq çıxdığını bildirib. O, həmçinin rəqəmsallığı gündəlik proseslərində və düşüncə tərzində əks etdirən "Azercell"in zənginləşən rəqəmsal məhsullar portfeli haqqında da geniş məlumat təqdim edib.

İkinci panel Avrasiya ölkələrində milli rəqəmsal iqtisadiyyatın inkişaf imkanları və problemləri mövzusunu əhatə edib. Üçüncü paneldə isə innovasiya və texnologiya istiqaməti müzakirə predmeti olub.

Qeyd edək ki, 18-24 oktyabr tarixlərini əhatə edən "InnoWeek - İnnovasiya həftəsi" Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, İnnovasiyalar Agentliyi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, "Azercell" və "Microsoft" şirkətləri ilə birgə reallaşdırılıb.

***"Azərbaycan"***

---

## B İ L D İ R İ Ş

### "Azərişıq" ASC "Fiber optik kabel və muftaların" satın alınması üzrə *kotirovka sorğusu keçirir*

Kotirovka sorğusu müsabiqəsində iştirak etmək istəyən iddiaçılar öz sənədlərini 01 noyabr 2019-cu il saat 15:00-dək aşağıdakı ünvana təqdim etməlidirlər.

**Ünvan: Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8. Əlaqə telefonu: (012) 440-39-93 (23-32)**

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti "Azərbaycan" qəzetinin 25 oktyabr 2019-cu il tarixli buraxılışında dərc edilmiş Əlillik altsisteminin təkmilləşdirilməsi xidmətinin, mühasibat uçotu və hesabat işləri üzrə mühasibat uçotunun avtomatlaşdırılması proqramının satın alınması üzrə elan etdiyi açıq tenderdə iddiaçıların tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədlərini Portal vasitəsilə təqdim etmə tarixi 18.11.2019-cu il saat 17:00-dan dəyişdirilərək, 15.11.2019-cu il tarixinə təyin edilir.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

### *Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nazirliyin inzibati binasında olan od söndürən balonların təkrar doldurulması işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.*

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 31 oktyabr 2019-cu il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən "Dəftərxana ləvazimatlarının" satın alınması üzrə keçirilmiş kotirovka sorğusunun qalibi "DIVIRNA" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Kotirovka sorğusunda qalib elan olunmuş "DIVIRNA" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə Protez-Ortopedik Bərpa Mərkəzi arasında müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 08 avqust 2019-cu il tarixində dərc edilmiş elan ilə əlaqədar bildiririk ki, 11 sentyabr 2019-cu il tarixdə keçirilmiş açıq tender sorğusu metodu ilə 311220 - "Digər maşın və avadanlıqlar" maddəsi üzrə digər maşın və avadanlıqların satın alınmasına dair Tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "LOTUS Co" MMC elan olunmuş və 23 oktyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən "Təsərrüfat mallarının" satın alınması üzrə keçirilmiş kotirovka sorğusunun qalibi "FORD NOKS CORPORATİON" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Kotirovka sorğusunda qalib elan olunmuş "FORD NOKS CORPORATİON" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə Protez-Ortopedik Bərpa Mərkəzi arasında müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

### Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin tabeli qurumlarının bina və tikililərinin pasportlaşdırılması məqsədilə qiymətləndirilməsi üçün *kotirovka sorğusu keçirir*

Maraqlanan təşkilatlar (012) 569-88-73 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 28 oktyabr 2019-cu il saat 15:00-dək qəbul olunur.

**Ünvan : Bakı şəhəri, Binəqədi rayonu 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134**

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 04 oktyabr 2019-cu il tarixdə "Plarad" markalı gərdirmə silindrin yoxlanılması, sazlanması və təmiri xidmətinin görülməsi (iki pilləli, fırlanma və gərginlik üçün) işlərinin satın alınması üzrə kotirovka sorğusu üsulu ilə keçirilmiş tender müsabiqəsində Tender komissiyasının qərarına əsasən "Qlobal-Elektro" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə ƏDV daxil **8 802,80 (Səkkiz min səkkiz yüz iki manat 80 qəpik)** manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

---

## İstirahət günlərində gözlənilən hava proqnozu açıqlanıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti istirahət günlərində - oktyabrın 26-27-də səyahətə çıxanlar üçün hava proqnozunu açıqlayıb.

Departamentdən AZƏRTAC-a verilən xəbərə görə, Böyük və Kiçik Qafqaz bölgəsinin bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu dağətəyi rayonlarda 17-22°, dağlıq rayonlarda 12-16° isti olacaq.

Lənkəran-Astara bölgəsinin bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın maksimal temperaturunun




18-23°, dağlıq rayonlarda 10-15° isti olacağı bildirilir.

Qazax-Gəncə zonasında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək. Havanın maksimal temperaturunun 18-23° isti olacağı ehtimal edilir.

Aran rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın maksimal temperaturunun 20-24° isti olacağı ehtimalı var.

Naxçıvan Muxtar Respublikasında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam saatlarında bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın maksimal temperaturunun 20-25° isti olacağı gözlənilir.

Paytaxtda isə havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi ehtimal edilir. Səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gündüz 19-22° isti olacağı proqnozlaşdırılır.

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, Komissiyanın üzvləri və Katibliyin rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Elçin Bağırova anası

**ELBA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Elçin Bağırova anası

**ELBA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərişıq" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Elçin Bağırova anası

**ELBA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Elçin Bağırova anası

**ELBA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatı Qadınlar Şurasının sədri

**TAMİLLA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin komissiya sədri, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Elçin Bağırova anası

**ELBA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Elçin Bağırova anası

**ELBA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tərtərdən Müstəqim Məmmədov Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Elçin Bağırova anası

**ELBA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin professor-müəllim heyəti tanınmış hüquqşünas-alim, hüquq elmləri doktoru, professor

**FİRUDİN YUSİF OĞLU SƏMƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Psixologiya kafedrası və Eksperimental psixologiya ETL-nin əməkdaşları Aydan Səməndərovaya atası, professor

**FİRUDİN SƏMƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin 1993-cü il məzunları fakültənin professoru, əməkdar hüquqşünas

**FİRUDİN SƏMƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi tanınmış hüquqşünas-alim, hüquq elmləri doktoru, professor

**FİRUDİN SƏMƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Energetika Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Elçin Bağırova anası

**ELBA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Elçin Bağırova anası

**ELBA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Elçin Bağırova anası

**ELBA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, professor Nəsib Quliyev və institutun əməkdaşları

**TAMİLLA HEYBƏT QIZI ŞAHBAZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8967
Sifariş 3541
Qiyməti 40 qəpik